

## Söyüdlüdə şirkətin fəaliyyəti müvəqqəti olaraq dayandırıldı

*Söyüdlüdə təbiətə, insanların sağlamlığına yaranmış təhlükəni nəzərə alaraq şirkətin fəaliyyətinin müvəqqəti olaraq dayandırılması ilə bağlı qərar qəbul edilib. "Unikal" xəbər verir ki, Baş nazir Əli Əsədov Gədəbəy rayonunun Söyüdlü kəndində vəziyyətin araşdırılması üçün yaradılmış Komissiyanın ikinci iclasında bu barədə qərar qəbul etdiyini deyib.*

Səh.2


# UNİKAL

№25 (2159) 14 iyul 2023-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru




## Əli Əsədovun qəbahəti və "cəsarəti"

### Baş nazir bu postda etimadı doğrultmadığını növbəti dəfə təsdiqlədi

*Yola salmaq üzrə olduğumuz həftə Prezident İlham Əliyev 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə Gədəbəy rayonunun Söyüdlü kəndində baş verən məlum hadisəyə Nazirlər Kabinetinin reaksiyasını sərt tənqid edi. Ölkə başçısı hadisə ilə bağlı Nazirlər Kabinetində müşavirə keçirildiyini və açıqlama verildiyini xatırladaraq əlavə edib: "O açıqlamanı oxuyan heç nə başa düşə bilməz ki, orada nə deyilib və o açıqlamanın məqsədi nə idi? İşi malalamaq, yaxud da ki, hansısa belə ümumi sözlərlə bu məsələyə diqqət yetirmək. Mən konkret tapşırıq vermişdim, konkret. Hanı ekspertizanın nəticələri? Nə qədər vaxt keçib? Bir aya yaxın vaxt keçib. Heç kim mənə məruzə etmir - Nazirlər Kabineti etmir, Ekologiya və Təbii Sərvətlər...*

Səh.8

Səh.3



## Qarabağda anti-terror əməliyyatı yenidən gündəmdə

## "Bəzi məmurlar ya həddindən artıq "şişib", ya da yerlərində deyil"



*11 iyulda Prezident İlham Əliyevin sədrliyi ilə bu ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirə keçirildi və prezident öz çıxışında bir sıra vacib məqamlara toxundu. Dünən isə ABŞ Dövlət Katibi Entoni Blinkenin prezidentə ünvanladığı məktub var. Maraqlıdır, siyasətçilər və siyasi partiyalar bunlarla...*

Səh.4

## "Azərbaycanda xaos və özbaşınalıqlara son qoyulub"



*"Dövlət başçısının qeyd etdiyi kimi Gədəbəydə baş vermiş hadisələr qəbuledilməzdir. 1993-cü ildə Azərbaycan cəmiyyətində xaos və özbaşınalıqlara son qoyulub. Ondan sonrakı dövr sabitlik və inkişafla bağlı olub". Bunu "Unikal" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Azər Badamov Prezident İlham Əliyevin...*

Səh.9

## Ermənistanın heç bir təxribatı cavabsız qalmayacaq - Ceyhun Bayramov



*Təxribatların törədilməsinin istənilən prosesə, görüşə və ya ümumilikdə danışıqlara yalnız mənfi təsiri ola bilər. Çünki onlar mühitə mənfi təsir göstərir, daha çox gərginlik yaradır və bunun istənilən halda geniş mənada mənfi təsiri var. "Unikal" xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Azərbaycanın...*

Səh.2

# "Kasıblar nə etsin, bu şəhərdə yaşamasın?" - Nura Suri



***"Dənizkənarı bulvarda rahat gəzmək mümkün deyil. Skuterlər, velosipedlər və onları idarə edən, insanların üstünə şütüyən məxluqların əlindən bulvarda addım atmaq mümkün deyil artıq".***

Bu sözləri müğənni Nura Suri sosial şəbəkədə yazıb. Sənətçi bulvarda qarşılaşdığı hadisədən gileylənib: "Bulvarda 1 stəkan çay sata bilməzsiniz, anında gəlib başınızın üstünü kəsdirərlər. Skuterlər yenə icarəyə verilir (guya qadağan olunmuşdu). Qoyulan qadağa işarələrinə baxan yoxdur. Deməli, Bakıda dənizi zəbt edib pul qazanırlar, hər yerdə pullu plyajlardı, bulvarda kafe əlindən yer yoxdur, bunlar yetməyib, skuterdən də qazanırlar.

İnsanlar nə etsin? Kasıblar yaşamasın bu şəhərdə? Bakını Dubay kimi varlılar şəhəri edin, kasıbları göndərin başqa yerdə yaşasınlar. Gündə yolları bağlıyıb insanlara tıxaclarda saatlarla əziyyət verirsiniz, pulsuz avtomobili heç yerdə saxlaya bilməz heç kəs - öz həyətində də (anında "parkovşik" adıyla gəlib 2 manatınızı alırlar). İnsanlara rahat yaşamaq üçün şərait yaradın, olmaz belə".

# "Pulum artdı, amma..." - Namiq Qaraçuxurlu



***"Pulum artandan sonra düşüncəmdə heç nə dəyişməyib. Həyat tərzim də o qədər dəyişməyib. Dostumun anasının bir gözəl sözü var, imkanın çox olanda gərək, elə yaşayasan ki, olmayanda çox hiss etməyəsən. Mən o həyat tərzini seçmişəm ki, imkanımın olmamasına da özümü hazırlamışam. Çünki bu, həyatdır, bizim böyük biznesimiz yoxdur. Hətta iş adamlarının da biznesi fanidir. Yatdın-durdun insanlar səni tədbirlərə çağırmadılar, konsertlər olmadı, sevgi azaldı. Ona görə də mən çalışıram, özümü o həyata öyrəşdirim. Hər şey hər anda pis ola bilər".***

Bu sözləri meyxanaçı Namiq Qaraçuxurlu "Səhər mərkəzi" verilişində deyib. Sənətçi məşhur olduqdan sonra dostlarının dəyişdiyini deyib: "Ətraf artıq o ətraf deyil. Ətraf səndən istifadə etməyi sevir. İstifadə edib də narazı qalmağı sevir. Bu isə ən yaralı yerimdir. Ələmişəm o ətrafı. Amma elə insanlar var ki, onları ələyə bilmirsən. Çünki onlar sənə çox yaxın insanlardır. Ən yaralı yerimdir. Hiss edirəm ki, mənim dəstəyimlə yaşayan insanların qəlblərinin dərinliyində narazılıqları var. Yəni, Namiq onlara yaxşılığı çox edə bilər, amma az edir. Əlini verirsən, qolun gedir məsələsi".

Namiq aparıcı Tural Əsədovun şəxsi həyatı ilə bağlı sualı isə cavabsız qoyub. "Şəxsi məsələlərimi danışmıram. Buna görə də bu suala cavab verməyəcəyəm" deyə, Qaraçuxurlu əlavə edib.

# "Cavanşir Məmmədovun qızı ilə kəbinimiz var"

***Əməkdar artist Cavanşir Məmmədovla qızı Xatirənin keçmiş sevgilisi, Türkiyə vətəndaşı Kemal Mustafa arasındakı qalmaqal davam edir.***

Axşam.az xəbər verir ki, "Təsir dairəsi" verilişinə gələn Mustafa Xatirənin onu aldatdığını, onunla ailə quracağını deyərək, bahalı hədiyyələr aldırtdığını iddia edib.

C.Məmmədov Mustafanın dediklərini inkar edərək, qızının onunla heç bir əlaqəsi olmadığını söyləyib.

Mustafa "Cavanşir bəy, bizim Xatirə ilə molla kəbinimiz var. Özü də iki dəfə kəbin etdik. Burada da olub, Türkiyədə Sultan Ahmed məscidində imam nikahımız olub. Bununla bağlı səs yazılarımız da var" deyə, söyləyib.

C.Məmmədov isə "Varsa, sübut et" cavabını verib.

Qeyd edək ki, Cavanşir Məmmədov hüquq-mühafizə orqanlarına müraciət edərək Mustafa İbili tərəfindən aldadıldığını bildirib. Belə ki, o iddia edib ki, Mustafa İbili Cavanşir Məmmədovdan 13.000 manat və 126.500 dollar alıb və geri qaytarmayıb. M. İbili barəsində Cinayət Məcəlləsinin 178.3.2-ci (Dələduzluq-külli miqdarda ziyan vurmaqla törədildikdə) maddəsi ilə cinayət işi başlanıb. Məhkəmə M.İbiliyə Cinayət Məcəlləsinin 147-ci maddəsi üzrə bəraət verib. O, Məcəlləsinin 148-ci, yəni təhqir əməli üzrə təqsirli bilinərək 1000 manat cərimə edilib. Mustafa "Təsir dairəsi"nə gələrək yardım istəyib.

# Vəfa Zeynalovanın gerçəkləşməyən arzusu

***Əməkdar artist Vəfa Zeynalova gerçəkləşməyən arzusundan danışıb.***



Aktrisa hər zaman oğlan obrazını canlandırmaq istədiyini deyib. Bu haqda "MTV xəbər"ə danışan V.Zeynalova bildirib ki, hələ də bu istəyinə çata bilməyib: "Səhnədə yeniyetmə bir oğlan obrazını oynamaq istəmişəm. Amma bu istəyim alınmayıb. Mən aktrisayam və bütün rolları oynamaq peşə borcumdur".

# Aysel Şükür Xan yaylağındakı bahalıqdan gileyləndi

***Bloger Aysel Şükür Şəkidə Xan yaylağına qalxmaq üçün ondan tələb olunan məbləğdən gileylənib.***

"Unikal" xəbər verir ki, o, bu barədə sosial şəbəkə hesabında açıqlama yayıb. Bloger sürücünün ondan 150 manat istədiyini deyib.

"Bir Xan yaylağına qalxmaq üçün 150 manat istəyir. Deyir ki, fərqi yoxdur, 1 nəfər, ya 7 nəfər, 150 manatı verməlisən. Deyirəm ki, uşaqlardır, qucağımda oturacaqlar. Yenə də qiyməti endirmir. Özü də yaylaqda nə çay içməyə, nə yemək yeməyə yer var. Turizm səhifələrində yalandan yazıblar ki, maşın 10 manata aparır. Yalandır, inanmayın. 10 manat söhbəti yoxdur. Bu qiymətə böyük maşın gedir, o da axşam saat 5-də şəlaləyə kimi gedir. Yaylağa getmir. Heç Şəkiyə gələndən 150 manat xərcləməmişəm".



# Elçin Quliyev İsrail Müdafiə naziri ilə görüşdü

***İyul ayının 13-də ölkəmizdə rəsmi səfərdə olan İsrail Dövlətinin müdafiə naziri Yoav Qallantın rəhbərlik etdiyi nümayəndə heyəti Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi general-polkovnik Elçin Quliyev tərəfindən qəbul edilib.***

Bu barədə “Unikal”a DSX-nin Mətbuat Mərkəzindən məlumat verilib. Bildirilib ki, DSX aparatında rəsmi qarşılanma mərasimi təşkil olunub, İsrailin müdafiə naziri Yoav Qallant fəxri qarovul dəstəsinin önündən keçib, “Fəxri qonaqlar kitabı”na ürək sözlərini yazıb.

Görüşdə DSX-nin rəisi general-polkovnik Elçin Quliyev Azərbaycan və İsrail Dövləti arasında qarşılıqlı faydalı münasibətlərin bütün istiqamətlərdə, o cümlədən hərbi-texniki sahədə uğur la inkişaf etdiyini vurğulayıb.

Azərbaycanın Prezidenti İlham Əliyevin Ali Baş Komandanlığı altında Vətən müharibəsində qazanılmış tarixi Zəfər nəticəsində ölkəmizin ərazi bütövlüyünün bərpa olunması vurğulanıb, azad edilmiş ərazilərdə dövlət sərhədlərinin mühafizəsi və müdafiəsi üzrə fəaliyyətlərin təşkili, zəruri infrastrukturun yaradılması istiqamətində görülən işlər barədə ətraflı məlumat verilib.

Müzakirə zamanı qurumlar arasında birgə əməkdaşlıq fəaliyyətlərinə nəzər salınıb, bu kimi səfərlərin ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsində əhəmiyyətli rolu vurğulanıb, qarşılıqlı maraq kəsb edən istiqamətlərdə əməkdaşlığın inkişaf etdirilməsinə dair fikir mübadiləsi aparılıb.

# Vilayət Eyvazov keçmiş rəisin oğluna vəzifə verdi



***Hüseyn Şabanov Gəncə şəhər 2-ci Polis Şöbəsinin cinayət axtarış bölməsinə baş əməliyyat müvəkkili təyin edilib.***

Bakıvaxtı.az xəbər verir ki, bu barədə daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun əmr imzalayıb.

Qeyd edək ki, H. Şabanov buna qədər Bakı şəhərində Nəqliyyatda Baş Polis İdarəsininin Dəmiryolu Polis İdarəsinin cinayət axtarış şöbəsində əməliyyat müvəkkili işləyib.

Əlavə edək ki, H. Şabanov Gəncə şəhər Baş Polis İdarəsinin keçmiş rəisi Faiq Şabanovun oğludur.

# Naxçıvanın bütün şəhərlərinin baş planı hazırlanacaq



***“Naxçıvan Muxtar Respublikasının bütün şəhərlərinin baş planları hazırlanacaq”.***

Bunu Azərbaycan Prezidentinin Naxçıvan Muxtar Respublikasında səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli iyulun 13-də Naxçıvan şəhərində yeni “Ümid” yaşayış kompleksinin istifadəyə verilməsi zamanı sakinlərlə görüşdə deyib.

O bildirib ki, Naxçıvanda indiyə qədər aparılan tikinti işlərində nöqsanlara yol verilib, əhalinin mülkiyyət hüququ pozulub, aparılan tikinti işlərində funksionallıq və memarlıq işi lazımi səviyyədə olmayıb.

F.Nəcəfli söyləyib ki, bu gün hazırlanan yeni layihələr isə elmə yanaşma və qanunvericiliyin tələblərinə əsaslanır: “Təəssüf ki, muxtar respublikada Naxçıvan şəhərindən başqa, heç bir şəhərin baş planı yoxdur. Naxçıvan şəhərinin baş planı 1984-cü ildə hazırlanıb. Baş planda isə həmin ildən indiki dövrə qədər şəhərdə baş verən inkişafla bağlı heç bir qeydiyyat aparılmayıb. Zərurət nəzərə alınaraq, muxtar respublikanın bütün şəhərlərinin baş planları hazırlanacaq”.

# Əli Əsədovun qəbahəti və "cəsarəti"

## Baş nazir bu postda etimadı doğrultmadığını növbəti dəfə təsdiqlədi



***Yola salmaq üzrə olduğumuz həftə Prezident İlham Əliyev 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə Gədəbəy rayonunun Söyüdlü kəndində baş verən məlum hadisəyə Nazirlər Kabinetinin reaksiyasını sərt tənqid etdi.***

Ölkə başçısı hadisə ilə bağlı Nazirlər Kabinetində müşavirə keçirildiyini və açıqlama verildiyini xatırladaraq əlavə edib: ”O açıqlamanı oxuyan heç nə başa düşə bilməz ki, orada nə deyilib və o açıqlamanın məqsədi nə idi? İşi malalamaq, yaxud da ki, hansısa belə ümumi sözlərlə bu məsələyə diqqət yetirmək. Mən konkret tapşırıq vermişdim, konkret. Hanı ekspertizanın nəticələri? Nə qədər vaxt keçib? Bir aya yaxın vaxt keçib. Heç kim mənə məruzə etmir - Nazirlər Kabineti etmir, Ekologiya və Təbii Sərvətlər Nazirliyi etmir”.

”Mən demişəm, gedin orada camaatla danışın, o torpağın, havanın nümunələrini götürün, beynəlxalq ekspertləri cəlb edin ki, - çünki nazirlik bir halda bu hadisənin səbəbkarı olub, ola bilər ki, işi malalasın, - onlar rəy versinlər, bu yataqların istismarı nə dərəcədə insanların sağlamlığına, təbiətə zərərlidir, ya zərərli deyil? Bu günə qədər cavab yoxdur. Bəli, Nazirlər Kabinetində müşavirə keçirilib, orada açıqlama verilib. O açıqlamanı oxuyan heç nə başa düşə bilməz ki, orada nə deyilib və o açıqlamanın məqsədi nə idi?” - ölkə başçısı çıxışında bildirib.

Bu sərt tənqidi gözlənilməz saymaq mümkün deyil. Əslində bir müddətdir ictimaiyyətdə hökumət kabinetinin ölkə rəhbərliyi tərəfindən müəyyənləşdirilən yeni çağırışlara cavab vermədiyi yönündə mütəmadi fikirlər səsləndirilirdi. Həmin fikirlərdən aydın olurdu ki, başda hökumət rəhbəri Əsədov olmaqla yanaşı, bir sıra nazirlər, komitə və agentlik rəhbərləri Prezidentin qarşıya qoyduğu vəzifələrin öhdəsindən gəlməkdə çətinlik çəkirlər.

Elə Söyüdlüdə yaşanan məlum hadisə zamanı cəmiyyətin müxtəlif kəsimlərində oxşar mülahizələr aktuallıq qazandı - istər baş nazir, istərsə də bəzi əlaqədar qurumlar olaylara vaxtında, düzgün və effektiv reaksiya göstərə bilməməkdə günahlandırılırdı. Qınamalı deyil: həqiqətən də nə Əsədov, nə də digər məsul şəxslər ilk gündən hadisənin araşdırılması istiqamətində fəaliyyətsizlik nümayiş etdirdilər, nəticədə məsələ böyüdü, yersiz ajiotaj yarandı. Bu, faktiki olaraq sabotaj idi - Prezident çıxışlarında dəfələrlə məmurlara vətəndaşların şikayətlərinə həssas yanaşılması barədə xəbərdarlıq etməsinə, tapşırıq verməsinə baxmayaraq bəzilərinin vəziyyəti süni gərginlik həddinə çatdırmasına sabotajdan başqa hansı ad vermək olar?

Məhz ona görə də dövlət rəhbəri müşavirədəki çıxışında açıq şəkildə bəyan etdi: ”Yeganə olaraq burada özünü ləyaqətlə aparan Azərbaycan polisi idi. Onu hər kəs bilməlidir”.

Bəs Əli Əsədovun rəhbərliyi altında hökumət kabineti nə işlə məşğul olub? Bu sualın cavabını da Prezidentin çıxışından öyrənirik - aydınlaşır ki, dövlət rəhbəri hadisədən xəbər tutandan sonra Baş nazirə zəng edib, araşdırma aparılması üçün mütləq komissiya yaratmasını və hadisə yerinə göndərməsini tapşırıb. Axı bunu Əsədova niyə ölkə başçısı söyləməlidir? Baş nazir özü həmin təşəbbüsü göstərə bilməzdimi? Əks təqdirdə onun həmin postda vəzifəsi nədən ibarətdir?

Ən ağlasığmazı odur ki, Əsədov bundan sonra komissiya yaradır, Gədəbəyə göndərir və... Və həmin komissiya faktiki olaraq hadisəni malalamaq yolu tutub, üstəlik, aradan bir ay vaxt keçməsinə baxmayaraq ekspertizanın açıqlamalarını Prezidentə məruzə etməyib! Maraqlıdır, görəsən, Əli müəllim özünü kim hesab edir və olayın üstünü malalamaqdan ötrü bu ”cəsarəti” haradan alır?

Ümumiyyətlə, Əsədov oxşar davranışı bundan öncəki postunda da nümayiş etdirirdi. Məsələn, ”Azərbaycan Dəmir Yolları” QSC-nin İnzibati Binaların və Qurğuların Təmiri-Tikintisi Departamentinə rəis təyin etdirdiyi Çingiz Məmmədovla bağlı çoxsaylı korrupsiya qalmaqalları yaşanmasına baxmayaraq ”qorxmadan” onu sonadək himayə eləmiş, cəzalandırılmaqdan qorumuşdu. Bu yöndə vaxtilə mediada çoxsaylı iddialar səsləndirilmiş, həmin iddialar qarşı tərəfdən təsdiqlənməsə də, təkzib də olunmamışdı.

Prezidentin sərt tənqidi bütün hallarda Baş nazirin Söyüdlü hadisəsindəki məsuliyyətini, daha doğrusu, məsuliyyətsiz davranışını bir daha ortaya qoydu. Görünür, o unudub ki, ölkə Konstitusiyasına əsasən Azərbaycan Respublikası Prezidentinin yuxarı icra orqanı sayılan Nazirlər Kabinetinə rəhbərlik etmək ”Narşərab”da, ”Mangal Steak”də nazirləri başına toplayaraq yeyib-içmək məclisləri düzəltməkdən ibarət deyil.

Bir sözlə, Gədəbəydə yaşanan hadisəyə qeyri-adekvat, qeyri-effektiv reaksiyası, hətta aparılan ekspertizanın nəticələrini belə bir aydır ölkə başçısına məruzə edə bilməməsi Əli Əsədovun uzun illər ciddi-cəhdlə can atdığı Baş nazir postunda ona göstərilən etimadı doğrultmadığını növbəti dəfə təsdiqlədi. Etimadı doğrultmayan hər bir vəzifə sahibi üçün isə sonun necə olacağı bəri başdan məlumdur...

# "Azərbaycanda xaos və özbaşınalıqlara son qoyulub"

## Azər Badamov: "Bu sabitliyi və inkişafı gözü götürməyən qüvvələr var ki, onlar hansısa yolla xalqın bu nailiyyətlərinin əlindən alınması üçün fürsət axtarırlar"

***"Dövlət başçısının qeyd etdiyi kimi Gədəbəydə baş vermiş hadisələr qəbuledilməzdir. 1993-cü ildə Azərbaycan cəmiyyətində xaos və özbaşınalıqlara son qoyulub. Ondan sonrakı dövr sabitlik və inkişafla bağlı olub".***

Bunu "Unikal" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Azər Badamov Prezident İlham Əliyevin bu ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə söylədiklərini şərh edərkən deyib.



Onun sözlərinə görə, bu sabitliyi və inkişafı gözü götürməyən qüvvələr var ki, onlar hansısa yolla xalqın bu nailiyyətlərinin əlindən alınması üçün fürsət axtarırlar.

"Belə bir fürsəti Söyüdlüdə tapdılar. Orada baş verən olayın təbii səbəbi vardı. Buna xarici şirkət tərəfindən kəndin ekologiyasının çirkləndirilməsi və müvafiq qurumun bu məsələyə biganə yanaşması səbəb olub. Amma müəyyən qüvvələr yaranmış bu vəziyyətdən istifadə edərək insanlar arasında narazılıq yaratmaqla onları polislə üz-üzə qoymağı planlaşdırdılar. Onlar müəyyən qədər öz məqsədlərinə nail ola da bildilər. Belə ki, sadə kənd sakinlərini qızışdırıb polisə daş atdıraraq təhqir etdirdilər. Amma polis məsələlərə təmkinlə yanaşdı və qanun çərçivəsində təhlükəsizlik tədbirlərini davam etdirdilər. Polis gecə-gündüz demədən hər bir hava şəraitində və hər yerdə ictimai asayişi, təhlükəsizliyi qoruyur. Polisdə xidmət edənlər də bizim övladlarımızdır. Təbii ki, polisə daş atmağı və təhqir edilməsinə heç cür haqq qazandırmaq olmaz. Söyüdlü sakinləri mövcud problemi qanuni yollarla və sakit şəkildə ifadə edə bilərdilər. Amma bu təxribatın təşkilatçılarına insanları ayağa qaldırmaq lazım idi. Dövlətin müvafiq orqanları bu təxribatın ölkə daxilindəki təşkilatçılarına qarşı hüquqi tədbirlər görür və xarici təşkilatçıların da cəzalandırılması istiqamətində tədbirlər davam etdiriləcək. Qeyd etməliyəm ki, ölkədəki sabitliyi pozmağa heç kimə imkan verilməyəcək".

Deputat bildirib ki, müşavirədə Prezident İlham Əliyev bu məsələlərə geniş toxunaraq Söyüdlüdə ekologiyaya ziyan vurma halının davam etdirilməsinə imkan verilməyəcəyini vurğulayıb: "O cümlədən, beynəlxalq ekspertlər cəlb edilməklə ekologiyanın çirkləndirilmə səviyyəsini dəyərləndirərək hesabat verilməsinə və ictimaiyyətin məlumatlandırılmasına tapşırıq verdi. Bu bir daha sübut etdi ki, cənab İlham Əliyev hər bir vətəndaşın prezidentidir. Qeyd etmək istəyirəm ki, müvafiq sahələr üzrə fəaliyyət göstərən məmurlar öz vəzifələrini vaxtında icra etsəydi və bu problemin aradan qaldırılması üçün vaxtında hərəkətə keçsəydi, Söyüdlülərin narazılığı bu qədər böyüməzdi".

Dövlət başçısı müşavirədə Ermənistan tərəfinin mövqeyində müsbətə doğru hərəkət olduğunu da bildirdi. MM üzvü bununla bağlı söyləyib ki, Ermənistanla müxtəlif platformalarda sülh müqaviləsi ilə bağlı aparılan görüşlər müsbət nəticələrə gətirib çıxarıb.

"Belə ki, Nikol Paşinyan Azərbaycanın ərazi bütövlüyünü rəqəmlərlə ifadə edərək Qarabağ və anklav kəndlərimizin Azərbaycanın ərazisi olduğunu rəsmən tanıyıb. Artıq Azərbaycanla Ermənistan arasında müzakirə olunmalı çoxlu məsələ qalmayıb. Sadəcə Ermənistanın dövlət başçısı özünün dediyi sözləri sənədə imza ataraq möhkəmləndirməlidir. Bu məsələ də Paşinyanın siyasi iradəsindən asılıdır. Düzdür, Ermənistanın havadarları bu müqavilənin imzalanmasının əngəllənməsinə çalışırlar. Ermənistan bilməlidir ki, onların inkişafı, təhlükəsizliyi onun havadarlarından yox, ancaq Azərbaycandan asılıdır. Nikol Paşinyan bunu nə qədər tez dərk edərək sülh müqaviləsinin imzalanması üçün hazır olduğunu bildirsə, bu ilk növbədə onların özləri üçün yaxşıdır. Əks halda, Azərbaycan Ermənistanın törətdiyi təxribatlara çox ağır zərbələrlə cavab verəcək. Zaman Azərbaycanın xeyrinə işləyir".

Müşavirədə çıxışı zamanı ölkə başçısının qeyd etdiyi vacib istiqamətlərdən biri də Azərbaycan Silahlı Qüvvələrinin daha da gücləndirilməsi ilə bağlı idi. A.Badamov qeyd edib ki, Azərbaycan Ordusu regionun ən güclü ordusudur. O əlavə edib ki, Ordumuz güclü olduğunu döyüş meydanında sübut edib:

"Amma bu o demək deyil ki, ordumuz güclüdür və bununla kifayətlənməliyik. Müharibə başa çatsa da yenidən müharibə riski hər zaman mövcuddur. Ordu dövlət müstəqilliyinin və ərazi bütövlüyünün qarantıdır. Həm də ordusu güclü olan dövlətlərin ədalətli mövqeyi dünya tərəfindən daha tez qəbul olunur. Ona görə də ordunun gücləndirilməsi hər zaman aktualdır. Azərbaycan dövlətinin iqtisadi imkanları genişləndikcə dövlət büdcəsindən orduya ayrılan vəsaitlərin həcmi də artırılır. Məhz dövlət büdcəsinə edilən dürüstləşmədən sonra orduya daha 1.1 milyard manat vəsait ayrıldı. Bu vəsaitlərə yeni silahlar alınacaq, yeni komanda hərbi hissələrinin yaradılması işləri davam etdiriləcək və ordumuzun peşəkarlığı daha da artırılacaq".

Prezident çıxışı zamanı onu da qeyd etdi ki, inflyasiyanın ikirəqəmli olması bizi düşündürməlidir. "Ümid edirəm ki, ilin sonuna qədər inflyasiya birrəqəmli səviyyəyə düşə bilər. Burada təbii səbəblərlə yanaşı, subyektiv səbəblər də vardır. Onlar daha ciddi araşdırılmalıdır və ilin sonuna qədər atılacaq addımlarla bağlı təkliflər verilməlidir. Çünki Azərbaycanın bütövlükdə iqtisadi potensialı və iqtisadi sahədə əldə edilmiş nəticələr fonunda inflyasiyanın 12 faiz səviyyəsində olması, əlbəttə ki, arzuolunan deyil", - dövlət başçısı bildirdi.

İnflyasiyanın qarşısının alınması üçün hansı təkliflər verilə biləcəyinə gəlincə, millət vəkili vurğulayıb ki, ölkədə inflyasiyanın ikirəqəmli olması insanların sosial rifahına mənfi təsir göstərir.

"Dövlət başçısının müşavirədə qeyd etdiyi kimi, Azərbaycanda orta illik inflyasiyanın birrəqəmli səviyyəyə endirilməsi üçün imkanlar mövcuddur. Bu imkanlar manatın son 6 ildə sabit olması, qeyri-neft sektorunda mütəmadi olaraq artmın olması, xarici dövlət borcunun ÜDM-in 10%-dən aşağı olması və xarici ticarət balansında 10 milyard dollara qədər profisitin yaranmasında əks olunur. Hesab edirəm ki, inflyasiyanın aşağı salınması üçün hökumət müəyyən tədbirlər həyata keçirəcək. Müşavirədə bu məsələ ilə bağlı verilən tapşırıqlar Prezident İlham Əliyevin apardığı siyasətin təməlində vətəndaşların rifahının dayandığını bir daha göstərir.

**Anar Kəlbiyev**

# ADNSU-nun rektoru vəzifəsi bu şəxsə həvalə edildi

***Azərbaycan Respublikası Elm və Təhsil naziri Emin Əmrullayevin əmri ilə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) Strateji məsələlər üzrə prorektor vəzifəsi yaradılıb və bu vəzifəyə ADNSU-nun nəzdində fəaliyyət göstərən Azərbaycan-Fransız Universitetinin (UFAZ) icraçı direktoru, dosent Vazeh Əskərov təyin olunub.***

"Unikal" xəbər verir ki, Elm və Təhsil Nazirinin digər əmri ilə Vazeh Əskərova ADNSU-nun rektoru vəzifəsi həvalə edilib.

Vazeh Eldəniz oğlu Əskərov 15 oktyabr 1978-ci ildə Bakı şəhərində ziyalı ailəsində anadan olub. 1995-1999-cu illərdə Azərbaycan Dillər Universitetində bakalavr, 2004-2007-ci illərdə Fransanın Marc Bloch Universitetində 2 magistr, 2007-2012 illərdə Strasburq Universitetində doktorluq təhsili alıb. 2012-ci ildə ona Strasburq Universitetinin doktoru elmi dərəcəsi verilib.

Fransada təhsil aldığı və yaşadığı müddətdə Vazeh Əskərov Azərbaycan diasporunun fəallarından biri kimi tanınıb. 2005-ci ildən Fransadakı Azərbaycanlı Tələbələr Assosiyasının (ASEAF/FATA) sədri, həmin ildə Strasburq Azərbaycan Evinin həmtəsisçisi və idarə heyətinin üzvü olub.

Əmək fəaliyyətinə 2001-2003-cü illərdə yerli və beynəlxalq şirkətlərdə çalışmaqla başlayan Vazeh Əskərov Fransada təhsil aldığı 2003-2013-cü illərdə akademik fəaliyyətlə məşğul olub. 2013-2014-cü illərdə Azərbaycan Dillər Universitetinin rektor müşaviri, 2014-2015-ci illərdə həmin universitetin tədris işləri üzrə prorektoru, 2016-2023-cü illərdə UFAZ-ın icraçı direktoru vəzifələrində çalışıb.

Vazeh Əskərov Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvüdür. Ailəlidir, iki övladı var.

# Dövlət Xidməti yayılan məlumatları təkzib etdi

***"Nəsimi rayonu, Ceyhun Hacıbəyli küçəsi 11 ünvanında yerləşən 3146 inventar nömrəli memarlıq abidəsinin sökülecəyi ilə bağlı sosial şəbəkələrdə tirajlanan məlumatlar həqiqəti əks etdirmir".***



Bu barədə Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətindən məlumat verilib.

Qeyd olunub ki, məsələ ilə bağlı Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin Bakı Regional İdarəsinin əməkdaşları tərəfindən əraziyə baxış keçirilib və yayılan məlumatları təsdiq edən heç bir fakta rast gəlinməyib.

"Eyni zamanda həmin tarixi abidədə yaşayan sakinlər də binanın sökülməsi ilə bağlı onlara hər hansı məlumatın verilmədiyini bildiriblər".

Həmçinin vurğulanıb ki, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinə əsasən, abidələrin bədii-estetik görkəminin dəyişdirilməsi, uçurulması və onlar üçün təhlükə yarada biləcək təmir, inşaat, təsərrüfat və digər işlərin aparılması qadağandır.

"Abidələrin qorunması haqqında Azərbaycan Respublikası qanunvericiliyini pozan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq cinayət, inzibati, intizam və mülki məsuliyyət daşıyırlar", məlumatda deyilir.

Qeyd edək ki, sosial şəbəkədə sözügedən tarixi memarlıq abidəsinin sökülecəyi ilə bağlı fikirlər müzakirə edilirdi.

# Prezident onları təltif etdi - Sərəncam



***Prezident İlham Əliyev Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin yaradılmasının 25 illiyi münasibətilə bir qrup şəxsin təltif edilməsi haqqında Sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, Sərəncama əsasən, məhkəmə orqanlarında və dövlət qulluğunda səmərəli fəaliyyət göstərdiklərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**
Salmanova Sona Sadıx qızı
Qvaladze Rafael Sergeyeviç
Quliyev Rauf Rəhim oğlu
**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**
Qaracayev Ceyhun Yasinəli oğlu
Şəfiyev Kamran Rauf oğlu
**"Tərəqqi" medalı ilə**
Babayev Anar Şahlar oğlu
Cəfərov Anar Əli oğlu
İbrahimov Sarıbəy Davud oğlu
Məmmədova Dürdanə Mirzə qızı
**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**
Quliyev Zaur Ağayar oğlu
Məmmədov Əsgər Allahverdi oğlu.

# Ermənilər fortifikasiya qurğuları quraşdırmağa cəhd göstərdilər



***İyulun 13-ü saat 11:15-də və saat 14:10-da Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Ordumuzun Ağdam və Kəlbəcər rayonları istiqamətlərində yerləşən mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.

# Kəlbəcərdə arıçı minaya düşdü

***İyulun 13-də saat 20 radələrində Kəlbəcər rayonu Çopurlu kəndində arıçılıq təsərrüfatı ilə məşğul olan Əliyev Sahib İsa oğlunun minaya düşməsi ilə polisə məlumat daxil olub.***

DİN-in mətbuat xidmətindən "Unikal"a bildirilib ki, hadisə rayonun Seyidlər kəndi ərazisində baş verib. Hadisə nəticəsində S.Əliyev xəsarət alıb.



Araşdırma aparılır.

Kəlbəcərdə arıçının minaya düşməsi ilə bağlı cinayət işi başlanıb.

"Unikal" xəbər verir ki, Baş prokurorluğun Mətbuat xidmətindən bildirilib ki, iyulun 13-ü saat 20 radələrində 1964-cü il təvəllüdlü Əliyev Sahib İsa oğlunun Kəlbəcər rayonunun Seyidlər kəndi ərazisində mina partlayışı nəticəsində ayağından xəsarət alması faktı üzrə Kəlbəcər rayon prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanaraq istintaq aparılır.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5"
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Hikmət Hacıyev Ararat Mirzoyanın paylaşımını ifşa etdi

***Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ermənistan xarici işlər naziri Ararat Mirzoyanın yalan paylaşımını ifşa edib.***

"Unikal" xəbər verir ki, Ararat Mirzoyan Tvitter hesabında "Qarabağdakı humanitar vəziyyət" səbəbilə vəfat etdiyi iddia etdiyi azyaşlıların fotosunu paylaşıb.

Hikmət Hacıyev cavabında Ermənistanın faktları yoxlamadan rəsmi səviyyədə yalan və dezinformasiya yaydığını bildirib:

"Ermənistanın xarici işlər naziri rəsmi səviyyədə yalan və dezinformasiya yayanda faktların yoxlanılmasına və miflərin ifşasına ehtiyac var. Yerli polis valideynlərinin nəzarətsizliyi səbəbilə 2 azyaşlının səhlənkarlıq və avtomobildəki yüksək temperatur nəticəsində yuxudaykən vəfat



etdiyini təsdiqləyib. Bu, riyakarlıqdan başqa birşey deyil", - Hikmət Hacıyev qeyd edib.

# Bu Komissiyanın yeni tərkibi təsdiqləndi

***Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın yeni tərkibi təsdiqlənib.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı müvafiq Sərəncam imzalayıb. Komissiyanın yeni tərkibi aşağıdakı kimidir:

**Komissiyanın sədri**

Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

**Komissiyanın üzvləri:**

Azərbaycan Respublikasının iqtisadiyyat naziri

Azərbaycan Respublikasının maliyyə naziri

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin sədri

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri

İqtisadi İslahatların Təhlili və Kommunikasiyası Mərkəzinin icraçı direktoru

Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin icraçı direktoru

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti

**Komissiyanın Katibliyinin rəhbəri**

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin İqtisadi islahatların monitorinqi, koordinasiyası və qiymətləndirilməsi sektorunun müdiri.

# Ermənistanın heç bir təxribatı cavabsız qalmayacaq - Ceyhun Bayramov

***Təxribatların törədilməsinin istənilən prosesə, görüşə və ya ümumilikdə danışıqlara yalnız mənfi təsiri ola bilər. Çünki onlar mühitə mənfi təsir göstərir, daha çox gərginlik yaradır və bunun istənilən halda geniş mənada mənfi təsiri var.***

"Unikal" xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Azərbaycanın xarici



işlər naziri Ceyhun Bayramov söyləyib

Nazir qeyd edib ki, Azərbaycan tərəfinin mövqeyi birmənalıdır. Azərbaycanın çağırışı ondan ibarətdir ki, təxribatlardan çəkinmək lazımdır. Hər kəs, ilk növbədə, Ermənistan başa düşməlidir ki, heç bir təxribat cavabsız qalmayacaq və ən sərt formada cavablandırılacaq.

# Söyüdlüdə şirkətin fəaliyyəti müvəqqəti olaraq dayandırıldı

***Söyüdlüdə təbiətə, insanların sağlamlığına yaranmış təhlükəni nəzərə alaraq şirkətin fəaliyyətinin müvəqqəti olaraq dayandırılması ilə bağlı qərar qəbul edilib.***

"Unikal" xəbər verir ki, Baş nazir Əli Əsədov Gədəbəy rayonunun Söyüdlü kəndində vəziyyətin araşdırılması üçün yaradılmış Komissiyanın ikinci iclasında bu barədə qərar qəbul etdiyini deyib.

Baş nazir bildirib ki, Cəlb edilmiş beynəlxalq şirkət tərəfindən aparılacaq qiymətləndirilmənin nəticələrinə və veriləcək tövsiyələrə uyğun olaraq işini təşkil edəcəyi təqdirdə müəssi-



sənin fəaliyyətinin bərpa edilməsi məsələsinə baxıla bilər.

Baş nazir qeyd edib ki, ərazidə fəaliyyət göstərən şirkət tərəfindən növbəti dövrdə istehsalatda müasir texnika və yeni texnologiyaların tətbiqi təmin edilməlidir.

Bildirilib ki, bu müddət ərzində müəssisə müəyyən edilən bütün nöqsanları aradan qaldırmalı, fəaliyyətini müvafiq qanunvericiliyin tələblərinə uyğun qurmalı, o cümlədən işçilər qarşısında sosial öhdəliklərini yerinə yetirməlidir.

# Qarabağda anti-terror əməliyyatı yenidən gündəmdə

***Ermənistan tərəfi mövcud olan kövrək anlaşma münasibətlərini yenidən dalana dirəməyə şalışır. Faktiki olaraq sülh danışıqlarını, delimitasiya və demarkasiya prosesini dayandıraraq, təxribatçılıq, sülhüpozma fəaliyyətini davam etdirir.***

İyulun 12-si saat 09:25-də isə Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən Ordumuzun Şuşa rayonu istiqamətində yerləşən mövqeləri atıcı silahlardan atəşə tutulub. Bu barədə "Yeni Müsavat"a Müdafiə Nazirliyindən məlumat verilib. Bundan başqa, saat 10:50-dən 12:10-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Dığ yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Laçın rayonunun Zabux yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub. Qeyd olunan istiqamətlərdə yerləşən bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb.

Milli Məclisin deputatı Ceyhun Məmmədov bildirib ki, sülhməramlı kontingentin fəaliyyət göstərdiyi ərazilərdə Azərbaycan ərzisini atəşə tutulması iki məsələdən xəbər verir: ya sülhməramlılar Qarabağdakı vəziyyətə nəzarət edə bilmirlər, ya da ki bu atəşkəs məqsədili şəkildə pozulur və Azərbaycana təzyiq etmək məqsədi daşıyır. O qeyd edib ki, həm sülhməramlı missiya, həm də Ermənistan silahlı qüvvələrinin tör-töküntüsü və qalıqları anlamalıdır ki, Azərbaycan bu məsələlərə uzun müddət səbr və dözüm nümayiş etdirməyəcək: "Sülhməramlı kontingenti ya üzərinə düşən vəzifəsini öhdəsindəsincə layiqincə gəlməlidir. Yenədə bunu bacarmırsa, ərazilərimizi tərk etsin biz özümüz necə burda qayda qanunun yarada bilərik, burda necə prosesləri tənzimləyə bilərik onu gözəl bilirik. Ona görədə bu oyunlara son qoyulmalıdır. Azərbaycan ərazisinin davamlı atəş altında saxlanılması dayandırılmalıdır və bu kimi addımlar atılmamalıdır. Yəni bu cür cəhdlər Rusiya-Azərbaycan münasibətlərinə də xələl gətirir".

Deputat deyib ki, əgər Ermənistan Azərbaycan ərazilərini atəş altında saxlayacaqsa və Azərbaycanın buna cavabı həddindən artıq sərt və kəskin olacaq: "Ordumuzun mövqelərinin atəşə tutulması o deməkdir ki, Qarabağda antiterror əməliyyatının keçirməyin vaxtı gəlibdir və bu əməliyyatların keçirilməsi artıq qaçılmazdır. Ərazilərimizin atəş altında saxlanılması yol verilməz və qəbul edilməzdir".

İyulun 13-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan İsrail Dövlətinin müdafiə naziri cənab Yoav Qallantın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. İsrailin müdafiə naziri Yoav Qallantın Azərbaycana səfər etməsinin ikitərəfli hərbi, təhlükəsizlik sahələrindəki əlaqələrdən ziyadə böyük regional gündəliyə söykənən aspektləri var. Siyasi şərhçi Aqşin Kərimov deyib ki, burada diqqət edilesi məqamlar - Yaxın Şərq və Cənubi Qafqaz regionlarındakı əlaqəli bağlar kontekstində:

- İran Yaxın Şərq cinahında - Livanda, Fələstində, Suriyadakı - mövqelərini, memarı olduğu "Hizbullah" qüvvələrini İsrailə qarşı müqavimət cəbhəsində yeni fazaya keçirir;
- Proksi qüvvələrdən istifadə İranın xarici siyasətindəki "döyüş" səhnələrini təşkil etdiyindən Yaxın Şərqdəki proseslərin Cənubi Qafqaza sirayəti ehtimalları artır;
- Türkiyənin NATO-nun maraqlarını üstün tutan bəyanat və hərəkətlərindən sonra İran Rusiya ilə əlbir olub Ankaranı Suriya və Cənubi Qafqazda sıxışdırmağa can atır, prosesə Çini də cəlb etmək istəyir;
- İranın yüksəkrütbəli hərbi rəsmilərinin İranın şimal-qərb sərhədlərindən (Azərbaycanla sərhəd nəzərdə tutulur) İsrail təhdidlərinin gəldiyini iddia etməsi diqqət çəkir;
- Ali dini rəhbər Seyid Əli Xameneinin beynəlxalq məsələlər üzrə müşaviri Əli Əkbər Vilayəti döngəni daha geniş götürərək İranın Zəngəzur dəhlizinə qarşı müqavimətini əsaslandırmağa çalışır;
- O, dəhlizin açılması perspektivini Ermənistanın bölünməsi, İranın beynəlxalq çıxışında maneə kimi qiymətləndirir;
- Beləliklə, Zəngəzur proyektinin reallaşmasının regionda uzunmüddətli gərginliyə səbəb olacağını deyir".

Müsahibimiz onu da qeyd edib ki, İsrail Cənubi Qafqazda Türkiyə ilə açıq-gizli əməkdaşlıq rejimini davam etdirir, bu mənada İranın vurğuları təkcə Qərbə qarşı yox, həm də Ankara-Təl-Əviv münasibətlərinin fazasına, Azərbaycanın bu aralıqda tutduğu mövqelərə işarə verir: "Beləliklə, İran üçün regionda münaqişə olması daha sərfəli variant kimi görünür, onun Azərbaycan-Ermənistan münasibətlərindəki sülh gündəliyi, bu proqramın yaratdığı geniş regional kontekstə qısqanc münasibəti bu fikri qüvvətləndirir. Bilinən budur ki, İran üçün Qarabağ mövzusunun doğurduğu geosiyasi nəticələri Azərbaycan əleyhinə blok etmək cəhdləri region üçün təhdidləri sovuşdurmur.



Bu mənada, İran Qarabağla bağlı yeni mərhələnin başlanmasına əlahiddə ehtiyac duyur, çünki regionda separatizm, münaqişələr, Tehranın regional genişlənmə siyasəti üçün bol fürsətlər deməkdir. İran məqsədinə doğru irəliləməkdən ötrü regiondakı müqavimət oxlarını bir neçə yerə, o cümlədən İsrailə qarşı tuşlayır, Təl-Əvivi çəkindirmək üçün proksi qüvvələrin bir qismini regiona rotasiya etməyi planlaşdırır. Azərbaycan İrana barmaq yeri qoymamaq üçün regiondakı separatçı ünsürlərin zərərsizləşdirilməsini ali məqsədlərindən biri hesab etdiyindən İsraillə əməkdaşlıqda lazım olan zirvəni fəth etməlidir.

Maraqlısı budur ki, Yoav Qallantın Azərbaycana səfərində Qarabağ notları aydın sezilməkdədir, separatçılıqla mübarizə ilə İranın əlaltı qüvvələrinə qarşı mübarizə meydanında koordinasiya ruhunu bəxş edən çalarlar gözə çarpmaqdadır.

Qallantın səfəri ərəfəsində İsrailin xarici işlər naziri Eli Kohenin Serbiyada: "Azərbaycanda İsrail səfirliyinə qarşı planlaşdırılan terrorun arxasında İran dayanır", - deməsi regionda Tehranın maraqlarına xidmət edən terrorçu qüvvələrin artdığına dair əlamətləri özündə daşıyır.

Ona görə də "Qarabağ və proksi təhdidlər" mövzusu Azərbaycan-Türkiyə strateji zehniyyəti ilə yanaşı, İsrailin regional siyasəti ilə bağlı zəkasını da narahat edir. Hər bir vəziyyətdə qeyd oluna bilər ki, İsrail İranın artan təhdidləri fonunda Azərbaycanın Qarabağda antiterror əməliyyatları başladıb, onun uğurla yekunlaşmasında maraqlıdır.

Müdafiə naziri Zakir Həsənovla Qallantın görüşündə Həsənovun Azərbaycan xəritəsindəki Qarabağ zonasını göstərməsinin fotosu eyni məzmuna vurğu kimi şərh edilə bilər. Qallantın səfərindən sonra regionda ritorikanın yenidən qaynar etapa daxil olacağını gözləmək məntiqli olardı, bunun təsirləri isə mövcud geosiyasi nəticələri Azərbaycanın xeyrinə dəyişə bilər - Qarabağda və Ermənistanla sərhəddəki mümkün əməliyyatlarla".

***M.İbrahimli***



# Palata 6 ayda 31 kənar dövlət maliyyə nəzarəti tədbiri keçirib

***Bu ilin I yarısında Hesablama Palatasının Kollegiyası 31 kənar dövlət maliyyə nəzarəti tədbirinin (bundan sonra - nəzarət tədbiri), o cümlədən 2 auditin "Dövlət sirri haqqında" qanunun tələblərinə uyğun olaraq keçirilməsi ilə bağlı qərar qəbul edib.***

"Unikal" bu barədə Palataya istinadən xəbər verir. Məlumata görə, nəzarət obyektlərinin 5-də ilk dəfə nəzarət tədbirinin keçirilməsinə başlanılıb, 9 layihə və proqram əvvəlki auditlərlə əhatə olunmayıb.

Nəzarət obyektləri arasında 12 mərkəzi icra hakimiyyəti orqanı, 8 publik hüquqi şəxs, 3 dövlət mülkiyyətində olan və dövlətin səhmi (payı) olan müəssisə, 1 büdcədənkənar dövlət fondu, 6 mərkəzi icra hakimiyyəti orqanı tabeliyində və yanında olan təşkilat, 1 təhsil müəssisəsi və digər təşkilati-hüquqi formaya malik qurumlar olub.

Hesabat dövründə uyğunluq auditinin payı ümumi portfeldə üstünlük təşkil edib. 2023-cü ilin ilk 6 ayında 2 səmərəlilik auditinin keçirilməsi ilə bağlı kollegiya qərarı qəbul edilib. Səmərəlilik auditləri uşaqların yoluxucu xəstəliklərə qarşı immunoprofilaktikası üzrə həyata keçirilən fəaliyyətin və toxumçuluq sahəsində fəaliyyətin nəticəliliyinin qiymətləndirilməsi mövzularını əhatə edir. Həyata keçirilən bir sıra auditlərdə informasiya sistemlərinin auditinin bəzi elementlərindən də istifadə edilir.

Hesabat dövründə 11 nəzarət tədbirinin, o cümlədən 10 audit (8-i uyğunluq, 1-i maliyyə auditi və 1-i səmərəlilik auditi olmaqla) və 1 analitik fəaliyyətin nəticələri üzrə auditor hesabatları kollegiya qərarı ilə təsdiq edilib. Hesablama Palatasının Naxçıvan MR üzrə İdarəsinin İş Planı üzrə 4 nəzarət tədbiri keçirilməsi ilə bağlı qərar qəbul edilib, 2-si başa çatdırılıb.

# "İbrahim Rəisi iqtisadiyyatı tamamilə məhv edib" - İranlı deputat

***İran prezidenti İbrahim Rəisi iqtisadiyyatı tamamilə məhv edib və ölkə "iqtisadi fəlakətə" yuvarlanıb.***



"Unikal" xəbər verir ki, bunu İran parlamentinin deputatı Calal Mahmudzadə deyib. Onun sözlərinə görə, Ruhani prezident seçkilərində 7 min səhifəlik proqramında ölkə vətəndaşlarına çoxlu vədlər verib. Halbuki onların heç biri yerinə yetirilməyib.

"İbrahim Rəisi güclü dövlət qurmağı vəd etmişdi. Güclü dövlət qurmaq bir yana, iqtisadiyyat acınacaqlı vəziyyətdədir", - deputat bildirib.

Parlamentari əlavə edib ki, ölkə valyutası "dəhşətli" şəkildə devalvasiyaya uğrayıb. Vətəndaşlar zəruri məhsullar almaq üçün uzun növbələrdə gözləməli olurlar. Məhsulların qiymətləri bir neçə dəfə bahalaşıb, 100%-lik inflyasiya hökm sürür. Ümumilikdə isə ölkədə iqtisadi fəlakət yaşanır.



# Büdcəyə bərpa edilən vəsaitin həcmi açıqlanıb

***Hesablama Palatası tərəfindən bu ilin birinci yarısında da əvvəlki illərdə başa çatdırılmış nəzarət tədbirlərinin nəticələri üzrə qurumlar tərəfindən atılmış addımların icrasının izlənilməsi (follow-up) diqqətdə saxlanılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Hesablama Palatasının 2023-cü ilin altı ayı üzrə fəaliyyətinə dair məlumatında qeyd olunub.

Bildirilib ki, əvvəlki illərin nəzarət tədbirləri üzrə dövlət vəsaitinin bərpa təklifi ilə bağlı qalan 25,5 mln. manatın 5,9 mln. manatının 2023-cü ilin ilk 6 ayında pul və əvəzləşdirmə formasında bərpası təmin edilib.

2023-cü ilin İş Planı üzrə başa çatdırılmış nəzarət tədbirlərinin nəticələri əsasında qəbul edilmiş kollegiya qərarlarına əsasən isə pul, əvəzləşmə və natura ifadəsində, eləcə də vergi öhdəliklərinin dövlət büdcəsinə hesablanması şəklində cəmi 22,9 mln. manat vəsaitin bərpası istiqamətində təkliflər verilib.

Cari ilin İş Planına əsasən başa çatdırılmış nəzarət tədbirləri ilə aşkarlanmış 23,4 mln. manat məbləğində maliyyə pozuntuları üzrə bərpa haqqında qərar qəbul edilməyib.

Qeyd edək ki, bu məbləğin əsas hissəsini əhaliyə sosial xarakterli ödənişlər təşkil edir.

# Sabiq icra başçısına məxsus hotellə bağlı qərar verildi

***Bir müddət öncə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin apardığı əməliyyat nəticəsində Babək rayonu Şəkərabad kəndi ərazisində yerləşən "Nəqşicahan" hotelində əxlaqsızlıq yuvasının olduğu aşkarlanıb.***




"Unikal" apa-ya istinadən xəbər verir ki, Naxçıvan Şəhər İcra Hakimiyyətinin sabiq başçısı Vüqar Səfərova məxsus hoteli işlədən Şərur rayon sakini, 1994-cü il təvəllüdlü Təbriz Musayev saxlanılıb.

Artıq onun məhkəməsi başa çatıb. Babək Rayon Məhkəməsində keçirilən prosesdə Təbriz Musayev Cinayət Məcəlləsinin 244-cü (Əxlaqsızlıq yuvaları saxlama) maddəsi ilə təqsirli bilinib. Məhkəmədə Təbriz Musayev törətdiyi əməli etiraf edib və peşman olduğunu bildirib.

O, məhkəmənin hökmü ilə 3200 manat cərimələnib.

Qeyd edək ki, "Nəqşicahan" hotelinin həmin hissəsi bağlanıb və həyətyanı sahədə olan kotejlər sökülür.

# "Bəzi məmurlar ya həddindən artıq "şişib", ya da yerlərində deyil"

## Əli Orucov: "Hər iki faktor Prezidentin nüfuzuna zərər gətirir, xalqı daha da narazı salır"

***11 iyulda Prezident İlham Əliyevin sədrliyi ilə bu ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirə keçirildi və prezident öz çıxışında bir sıra vacib məqamlara toxundu. Dünən isə ABŞ Dövlət Katibi Entoni Blinkenin prezidentə ünvanladığı məktub var. Maraqlıdır, siyasətçilər və siyasi partiyalar bunlarla bağlı nə düşünürlər?***

Odur ki, müsahibimiz AMİP liderinin köməkçisi və partiyanın Siyasi Şura üzvü Əli Orucovla da bunlar barədə danışdıq.

***-Əli bəy, yəqin ki, Prezident İlham Əliyevin bu ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirəni izləmisiniz. Müxalifət təmsilçisi və politoloq kimi bu barədə fikirləriniz maraqlı olardı.***

-Əlbəttə, mən professional siyasətlə məşğul olan şəxs kimi prezidentin bütün çıxışlarını, səfərlərini, görüşlərini və müsahibələrini izləyirəm. 11 iyulda cari ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə Prezidentin etdiyi çıxışı da diqqətlə və sonacan izlədim. Qənaətim ondan ibarətdir ki, həmin çıxışda bütün sferaları əhatə edən məsələlərə toxunuldu. Xüsusən də işğaldan azad olunmuş ərazilərimizdə nəzərdə tutulan işlər və Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması, ölkənin iqtisadi durumuna geniş yer verildi. Hesab edirəm ki, bu, həm də 6 ay ərzində hökumətin xalqa verdiyi hesabat idi. Həmçinin də qarşıda görüləcək işlərin bir növ qısa və dolğun təqdimi idi. Doğrudur, bəzi məqamlara üstörtülü toxunuldu, yaxud, üzərindən səthi keçildi. Bununla belə Prezident öz komandasının fəaliyyətindən məmnunluğunu ifadə etməklə yanaşı, həm də tənqidi fikirlərini də səsləndirdi. Xüsusən də Gədəbəyin Söyüdlü kəndində baş verən etirazla bağlı dediklərindən belə anlamaq olur ki, bir sıra nazirliklər və bəzi mərkəzi icra hakimiyyəti orqanları üzərinə düşən vəzifələrinin öhdəsindən gələ bilmirlər. Məsuliyyətsizlik edirlər. Bu məsuliyyətsizliyin miqyası hətta o qədər böyükdür ki, Prezidentin tapşırıq və göstərişləri belə sabotaj edilir. Bu mənzərə təbii ki, xoşa gələn deyil. Demək ki, bəzi yüksək rütbəli məmurlar ya həddindən artıq şişib, ya da həmin kadr yerində deyil. Hər iki faktor Prezidentin nüfuzuna da zərər gətirir, həmçinin xalqı daha da narazı salır, siyasi düşərgələr arasında ziddiyyətləri dərinləşdirir və inamsızlıq sindromu yaradır. Xalqın dövlətinə və hakimiyyətə inamına sarsıdıcı zərbə vurur. Bu cür laqeyd, işini bacarmayan məmurların ucbatından həm dövlət sosial təbəqələr arasında balansı kəskin şəkildə pisliyə dəyişir və beynəlxalq aləmdə ölkənin nüfuzuna xələl gətirir. Məncə, iqtisadi göstəricilərlə yanaşı, kadrların yerləşdirilməsi, dövlət orqanları və strukturlarının təkmilləşdirilməsi, daha çevik və operativ hala gətirilməsi çox önəmlidir. Xatırlayırsızsa, 3 il əvvəl belə bir islahatlara start verildi, lakin nədənsə sonra yenidən hər şey əvvəlki vəziyyətinə qayıtdı. Siz baxın, Ekalogiya və Təbii Sərvətlər Nazirliyinin yarıtmaz fəaliyyətindən, acgözlüyündən və tamahkarlığından doğan etirazda günahkar qaldı kölgədə, cəmiyyəti ölkə rəhbərinə və polisə qarşı yönlədirilməyə çalışıldı. Fikrimcə, Söyüdlü hadisələrindən və Prezidentə qarşı göstərdiyi məsuliyyətsiz davranışlara görə nazir istefaya göndərilməlydi. Prezident tapşırıq verir, nazir həmin tapşırığın icrası və nəticəsi barədə hesabat vermir. Bu hal cəmiyyətdə heç də birmənalı qarşılanmır. İmkan verilməməlidir ki, xalqın dövlətə inamı sarsılsın. Zatən biz elə bir regionda yerləşirik ki, əhatəmiz bizə dost olmayan dövlətlərdir. İran, Rusiya, Ermənistan kimi təcavüzkar siyasi xətt yürüdən, beynəlxalq hüquq normalarına əhəmiyyət verməyən dövlətlərlə qonşu olmaq bizi daim tətikdə, ayıq-sayıq və güclü olmağa diqtə edir. Üstəlik də son zamanlar Fransa kimi Avropa qitəsində əsas söz sahiblərindən olan bir dövlətin əsassız və ədalətsiz artan təzyiqləri ortadadır. Prezident bu məsələlərə də detallı toxundu. Həqiqətən də, dünyada artıq qaydalar pozulub, beynəlxalq huquq deyilən anlayışın formallığı qalıb. Kim güclüdürsə, o haqlı sayılır. Baxın, 30 il Azərbaycanı güzəştlərə məcbur edirdilər. Niyə? Çünki biz məğlub tərəf idik. 44 günlük müharibə bizim gücümüzün dünyada sübutu oldu. Reallıqlar dəyişdi. İndi heç kim Azərbaycanı hansısa güzəştə məcbur edə bilməz və güc dilində danışa bilməz. Bu gücümüzü daha da möhkəmləndirmək ümdə borcumuzdur.



***-Ermənistan Azərbaycan münasibətlərinin normallaşdırılması barədə səslənən fikirlərdə bir daha Azərbaycanın sülh gündəliyinə sadiq qaldığı öz əksini tapdı. Sizcə, proses niyə bu qədər uzanır?***

-Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşmasının və sülh müqviləsinin bağlanması sürəcinin uzanmasının iki faktor mühüm rol oynayır. Erməni cəmiyyətinin Azərbaycana, türkə pataloji nifrətinin yaratdığı baryer və Rusiya, Fransa və İran amili. Məsələ baş nazir N.Paşinyana qalsaydı bu münasibətlər bəlkə normal tempində gedərdi. Ancaq sadaladığım amillər imkan vermir ki, uzun illər silahlı münaqişələrdən və qeyri-stabil durumdan əziyyət çəkən Cənubi Qafqaz rahatlıq tapsın, sülhəminamanlıq içində yaşasın. Doğrudur, erməni xisləti elədir ki, onlar harada var, orada barıt çəlləyi və münaqişə ocaqları var. Lakin onların arxasında böyük güclər duranda məkr və yırtıcı simaları üzə çıxır. İndi nə Rusiya, nə İran özləri böhran içində boğulduğundan erməni dostlarına yetəri dəstək ola bilmirlər. Ermənistanın böyük bacısı Fransa isə regiona çox uzaq olduğundan fəal müdaxilə edə bilmir. Ona görə də sülh prosesi uzansa da, ermənilərin bundan yaxşı alternativ variantları yoxdur. Olmayacaq da. Xarici işlər nazirləri tez tez görüşür, təmasa keçirlər. İki gün öncə hər iki ölkənin baş nazir müavinləri sərhəd məntəqələrində görüşüb demorkasiya və delimitasiya məsələlərini müzakirə ediblər. Yaxın vaxtlarda hər iki ölkənin liderlərinin görüşləri gözlənilir. Ləng və çətin də olsa, proses gedir.

***- ABŞ Dövlət katibi A.Blinken dünən prezidentlə telefon danışığında da Ermənistan-Azərbaycan münasibətləri barədə olub. ABŞ təşəbbüsü Rusiyanın əlindən ala bilərmi?***

- Belə bir cəhd sözsüz ki, var və bu sistemli şəkildə davam etdirilir. Rəsmi Moskva çox yaxşı anlayır ki, Vaşinqton feostrateji əhəmiyyət daşıyan Cənubi Qafqaz regionundan Rusiyanı tədricən sıxışdırıb çıxarmaq istəyir. Lakin bu heç də asan məsələ deyil. Burada Rusiyanın müttəfiqi olan İran faktoru da var. Digər tərəfdən 300 il regionda hegomonluq edən Rusiyanı bütünlükdə buradan çıxarmağı mümkün hesab etmirəm. Moskva azçox burada öz maraqlarını təmin edə biləcək. Göründüyü kimi, ABŞ və onun müttəfiqləri ilə Rusiya arasında çox ciddi rəqabət var. Azərbaycan və Ermənistan liderlərinin Qərb mərkəzlərində ikili və çoxtərəfli təmaslarından dərhal sonra Moskvanın vasitəçiliyi də gündəmə gətirilir. Və Kremlin sonu da, üslübu da fərqli, sərt olur. Beləliklə də, prosses pozulur, yaxud da tormozlanır. Moskvanın təxribatları və təzyiq mexanizmləri işə salınır. Rusiya XİN sözçüsü M.Zaxarovanın hədələyici tonu və ardınca Xankəndində etirazlar, eləcə də qanunsuz erməni silahlı birləşmələrinin mövqelərimizi atəşə tutması, bunların hamısı təsadüfi sayılmamalıdır və paralel olaraq Mokvadan idarə olunur. Fikrimcə, Rusiyanı xəfifə almaq lazım deyil və Moskvanın qırmızı cizgisinə toxunmadan Qərbin sülh dəstəyinə yönlənmək daha faydalı olardı. Onu da deməliyəm ki, ermənilərin yaxın vaxtlarda sülh sazişi imzalayacağına şübhə ilə yanaşıram. Ancaq pessimist də deyiləm.

***Z.Məmmədli***

# Emin Əmrullayevlə Məleykə Abbaszadənin ortaq narazılığı

## Həftənin replikası: problem varsa, yalnız giley-güzar eləməklə onu aradan qaldırmaq mümkündürmü?

***Bu günlərdə elm və təhsil naziri Emin Əmrullayev bildirib ki, qarşıda iki məqsəd var: "Birincisi, keyfiyyəti qaldırmaq, ikincisi isə həmin keyfiyyəti bərabər paylamaq".***

Onun sözlərinə görə, son 3-4 ildə riyaziyyatla məşğul olan insanın bu fənnlə problemi ola bilməz: "Lakin elə müəllim var ki, çubuqlu bölməni edə bilmir. Belə şəxslərin sayı çox olmasa da var. Biz savadsızlığa qarşı total reaksiya vermirik".

O bildirib ki, bu problemi nazirlik tək həll edə bilməz: "Burada cəmiyyətin məsələyə münasibətləri köklü şəkildə dəyişməlidir. Dəyişməsə təhsil prosesində də keyfiyyəti tam mənası ilə yüksəltmək mümkün olmayacaq".

Sertifikasiya ilə bağlı nazir bildirib ki, 30 min ibtidai sinif müəlliminin 0,7 faizi, yəni 223 nəfəri 0-9 bal toplayıb. 10 faizi isə 10-19 bal toplayıb. Nazir qeyd edib ki, 51 bal həddini keçən müəllimlərin faiz göstəricisi isə 17 faiz təşkil edib.

Məleykə Abbaszadənin rəhbəri olduğu Dövlət İmtahan Mərkəzinin (DİM) hesabatında açıqlanıb ki, ötən il orta məktəbi "əlaçı" kimi bitirmiş 149 abituriyent qəbul imtahanında 0-100 bal arası nəticə göstərib: "Məzunların bir hissəsi təhsil proqramının 43-73%-ni mənimsəmir. Bu isə ümumi təhsil müəssisələrimizin böyük qismində tədris prosesinin normal aparılmamasından, tələbkarlığın zəifliyindən, ən başlıcası isə müəllimlərin çoxunun peşəkarlıq səviyyəsinin aşağı olmasından və tədris prosesində yeni təlim üsulları və texnologiyalarından istifadə edə bilməməsindən irəli gəlir. Abituriyentlərin cavab göstəricilərindən aydın olur ki, orta statistik abituriyent fənlər üzrə testlərin yalnız 27-57 faizinə düzgün cavab verib".

Göründüyü kimi, Elm və Təhsil Nazirliyi (ETN) sertifikasiya zamanı bəzi müəllimlərin, DİM isə bir sıra abituriyentlərin çox aşağı nəticə göstərdiyindən şikayətçidir. Bu şikayət üçün hər iki qurumun haqlı səbəbləri ola bilər və... var!

Lakin istər ETN-nin, istərsə də DİM-in işi yalnız şikayətlənmək, narazı qalmaq deyil.

Eyni zamanda ortada bir problem varsa onu aradan qaldırmağın yolları üzərində baş sındırmaq, analizlər aparmaq, bu analizlərin yekunu olaraq təkliflər hazırlamaq və həyata keçirməkdir.

Düzdür, istər media, istər təhsil ekpertləri, istərsə də vətəndaşlar sözügedən iki qurum tərəfindən dilə gətirilən problemlərin mövcudluğuna şübhə eləmirlər. Hətta onlardan da bu yöndə mütəmadi giley-güzar eşidilir. Ancaq ENT və DİM-lə bağlı durum fərqlidir. Həm nazirlik, həm də mərkəz yalnız şikayətlənməklə kifayətlənə bilməzlər. Onların başlıca vəzifəsi problemi göstərməkdən çox həll yolunu göstərməkdir. Bəlkə, yanılırıq?!

Bu yerdə təhsil eksperti Kamran Əsədovun bu günlərdəki açıqlamasını xatırlatmaq yerinə düşür. Sitat: "...orta ümumtəhsil məktəblərini "əla" qiymətlərlə bitirən əlaçılar, hətta fərqlənmə attestatı alanlar arasında müvafiq imtahanlarda minimum balı toplayan kifayət qədər şagirdimiz var. Bu, birmənalı olaraq yaxşı hal deyil. Bunun aradan qaldırılması üçün mütləq şəkildə orta ümumtəhsil məktəblərində monitorinqlər həyata keçirilməlidir. Hansı fənlər üzrə şagirdlərdə məzmun standartlarının mənimsənilməsində problemlər varsa, o istiqamətdə güclü iş aparılmalıdır. Ancaq biz görürük ki, bu gün müvafiq qurum, yəni Elm və Təhsil Naizrliyi təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində heç bir addım atmır..."

Ekspertin sözləri də təsdiqləyir ki, ETN son vaxtlar daha çox təhsildəki çatışmazlıqları dilə gətirməklə kifayətlənir, nəinki həmin çatışmazlıqların aradan qaldırılması ilə!

Yeri gəlmişkən, bir neçə gün öncə deputat, təhsil mütəxəssisi Etibar Əliyev də elm və təhsil nazirinin başqa bir məsələ ilə bağlı giley-güzarına sərt reaksiya vermişdi. Sitat: "Emin Əmrullayev deyir ki, yaşı 25-dən yuxarı gənc olmayan adamların 60 faizi oxuduğu mətndə əsas fikri başa düşmür. Sonra deyir ki, mən faktı deyirəm. Bu nə deməkdir? Belə fakt olar? Hansı mətni? Ölkənin Elm və təhsil naziri milləti təhqir edir. Sən hardan bilirsən ki, 25 yaşdan yuxarı yaşı olanların 60 faizi Füzulinin, Nizaminin, Əhməd bəy Ağaoğlunun, Axundovun, Heminqueyin, Çexovun və s. yazıçı və mütəfəkkirlərin əsərlərindəki əsas fikri başa düşmür?" Deputat hətta nazirin səsləndirdiyi məlum fikrə görə Azərbaycan xalqından üzr istəməli olduğunu demişdi.



Bir sözlə, hansısa sahəyə məsul olan yüksək vəzifəli şəxs həmin sahə ilə bağlı hansısa nöqsandan, çatışmazlıqdan, problemdən davamlı şəkildə yalnız şikayətlənirsə, o zaman cəmiyyətdən kəskin reaksiyaların da olması təbiidir. Yüksək post sahiblərinin başlıca vəzifəsi hər hansı dərdi sadəcə dilə gətirmək deyil, ilk növbədə həmin dərdə "dərman" tapmaqdır. Bu qətiyyən unudulmamalıdır!

***Sənan Mirzə***

# Zakir Həsənov israilli həmkarı ilə görüşüb



***İyulun 13-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan İsrail Dövlətinin müdafiə naziri cənab Yoav Qallantın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Nazirlikdən "Unikal"a verilən xəbərə görə, əvvəlcə İsrailin nümayəndə heyəti Şəhidlər xiyabanına gələrək ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının, həmçinin Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun məzarlarını ziyarət edib və üzərinə gül dəstələri düzüblər. "Əbədi məşəl" abidəsi önünə əklil qoyulub.

Sonra Müdafiə Nazirliyində rəsmi qarşılanma mərasimi keçirilib. İsrailin müdafiə naziri fəxri qarovul dəstəsinin önündən keçib, hərbi orkestrin müşayiəti ilə hər iki ölkənin dövlət himnləri səsləndirilib və protokola uyğun olaraq "Şərəf kitabı" imzalanıb.

General-polkovnik Z.Həsənov israilli həmkarını salamlayaraq onu ölkəmizdə görməkdən məmnun olduğunu bildirib, ölkələrimiz arasında tərəfdaşlığın yüksək səviyyədə olmasının təkcə dövlətlərimizin inkişafında deyil, habelə bütün regionda təhlükəsizliyin təmin edilməsində mühüm rol oynadığını qeyd edib.

İsrail Dövlətinin müdafiə naziri kimi ölkəmizə ilk səfərindən və səmimi görüşə görə məmnunluğunu ifadə edən cənab Y.Qallant Azərbaycan-İsrail əlaqələrinin dostluq və qarşılıqlı etimada əsaslandığını vurğulayıb, hərbi əməkdaşlığın daha da inkişaf etdirilməsi baxımından bu cür görüşlərin və qarşılıqlı səfərlərin zəruriliyini qeyd edib.

Strateji münasibətlərin daha da möhkəmləndirilməsi və təhlükəsizlik üzrə əlaqələrin genişləndirilməsinin əhəmiyyəti xüsusi vurğulanıb. Görüşdə Azərbaycan ilə İsrail arasında hərbi, hərbi-texniki sahələrdə əməkdaşlığın inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olunub.

# Qurumlarda ştat sayının optimallaşdırılmasına ehtiyac var - RƏSMİ

***Hesabat dövründə aparılmış nəzarət tədbirlərinin nəticələrini nəzərə alaraq Hesablama Palatası bəzi riskləri və diqqətə alınmalı məqamları açıqlayıb.***

"Unikal"ın xəbərinə görə, bu, Hesablama Palatasının 2023-cü ilin altı ayı üzrə fəaliyyətinə dair məlumatında əksini tapıb.

Bu məqamlar aşağıdakılardır:

- Qurumlar tərəfindən dövlət satınalmalarının hazırlıq mərhələsində ehtiyacların düzgün müəyyənləşdirilməməsi və satınalmaların icrası zamanı vəsaitə qənaət olunmaması;
- bəzi qurumlar üzrə daxili idarəetmə və işlərin təşkili ilə bağlı qərarların vaxtında verilməməsi nəticəsində vəsaitlərin icrasının gecikməsi və ya müəyyən edilmiş müddət ərzində icra edilməməsi;
- bəzi sahələr üzrə strateji sənədlərin qəbul edilməməsi və sahə üzrə əsas performans göstəricilərinin çatışmazlığının icra edilmiş vəsaitlə nəticə arasında əlaqənin ölçülməsi imkanlarını məhdudlaşdırması;
- bəzi qurumlar üzrə nəzarət mexanizmlərinin zəif olması fonunda maliyyə hesabatlarında təhriflərə yol verilməsi, həmçinin əvvəlki illərdə büdcə təşkilatı olan qurumların publik hüquqi şəxsə çevrilməsindən sonra maliyyə uçotu və hesabatlılığının yeni çərçivəyə tam uyğun aparılmaması;
- dövlət qurumlarının proqram təminatları və bazalarının inteqrasiyasında çətinliklər və qurulan sistemlərin tam işlək olmaması, başqa sözlə müvafiq proqram təminatının olması fonunda proseslərin idarəedilməsi, o cümlədən uçot və statistikanın rəqəmsal alət vasitəsilə tam dəstəklənməməsi;
- qurumlar tərəfindən büdcədənkənar fəaliyyətdən əldə olunan gəlirlərin reallaşdırılması üçün səlahiyyətləri çərçivəsindən bütün potensialdan istifadə olunmaması;
- layihə smeta sənədlərinin tikinti işlərinin aparılması ilə eyni vaxtda hazırlanmasının layihələrin icrasında uyğunsuzluq hallarına səbəb olması;
- tibb sahəsi üzrə ştatların artımında qeyri-funksional fəaliyyət üzrə heyətə üstünlük verilməsi və funksional fəaliyyət üzrə keyfiyyətli xidmətin təqdim edilməsində risklərin formalaşması;
- dövlət sektoru üzrə ştat sayının optimallaşdırılmasına ehtiyac duyulması.



# 2026-cı ilədək Qarabağa nə qədər sakin qayıdacaq?

***"2026-cı ilədək Qarabağ iqtisadi rayonu üzrə azı 66 min sakinin geri qayıdışı nəzərdə tutulur".***

"Unikal" xəbər verir ki, bunu Ağdam şəhərindəki Konfrans Mərkəzində keçirilən "Ağdamın dirçəlişi" adlı tədbirdə Qarabağ İqtisadi Rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov deyib.

Onun sözlərinə görə, şübhəsiz ki, mədəni və dini irsin qorunub saxlanması bizim digər prioritetimizdir. Hazırda Ağdamdakı Cümə və Qiyaslı məscidləri bərpa olunur, Suqovuşan və Hadrut qəsəbələrində isə yeni məscidlərin tikintisi üzrə layihələndirmə işləri aparılır. Pənahəli xanın sarayı - İmarətdə və Şahbulaq qalasında yaxın vaxtlarda bərpa işlərinə başlanılacaq. İmarətdə yerləşən Azərbaycanın görkəmli şairəsi və xan qızı Xurşidbanu Natəvanın qəbirüstü abidəsi özünün ilkin görkəmində artıq bərpa olunub.

Xüsusi nümayəndə qeyd edib ki, səhiyyə infrastrukturu üzrə Ağdam və Füzuli şəhərlərində 2 mərkəzi xəstəxananın tikintisinə yaxın zamanlarda başlanılacaq. İstər Ağdamda, istərsə də Füzulidə Zəfər və açıq hava altında İşğal muzeyləri olacaq. Həmçinin hazırda Füzuli və Ağdam şəhərlərinin mərkəzi parkları və Ağdam Meşə Parkının tikinti layihələri hazırlanma mərhələsindədir.

"Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq işğaldan azad edilmiş ərazilərdə bütün bərpa və reabilitasiya prosesini 3 əsas mərhələyə bölmək olar. 1-ci mərhələdə, 2026-cı ilədək Qarabağ iqtisadi rayonu üzrə 2 şəhər mərkəzinin və 32 kəndin tikilməsi, 3 məntəqənin turizmyönlü inkişaf etdirilməsi, torpaq islahatı ilə bağlı təkliflərin hazırlanması və ən azı 66 min sakinimizin öz dədə-baba torpaqlarına geri qayıdışının təmin edilməsi qarşımızdakı əsas hədəflərdir", - deyə o əlavə edib.

# "Əksər dövlət qurumlarında formalaşdırılan İctimai Şuralar aktiv deyil" - Deputat



***"Bu ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə Azərbaycan Prezidenti İlham Əliyev öz çıxışında Gədəbəy rayonunda baş vermiş hadisə ilə bağlı bildirdi ki, məsələ ilə əlaqədar "həm mənə, həm ictimaiyyətə məlumat verilməlidi" ".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. O bildirib ki, bu yalnız bir quruma deyil, bütövlükdə dövlət orqanlarına ictimaiyyətə açıq olmaq və öz fəaliyyətləri ilə əlaqədar daimi əhalini məlumatlandırmaq ilə bağlı tapşırıq idi:

"Dövlət qurumlarının ictimaiyyətə açıqlıq səviyyəsini göstərən meyarlardan biri də İctimai Şuraların fəaliyyətidir. Monitorinqlər göstərir ki, bu gün əksər dövlət qurumlarının yanında formalaşdırılan İctimai Şuralar tam aktiv deyil və həmin orqan ilə ictimaiyyət arasında körpü rolunu oynaya bilmir. Cənab Prezidentin son çıxışı bir daha belə şuraların aktiv fəaliyyətini gündəmə gətirir.

İctimai Şuralar fəaliyyət göstərdiyi qurumun işləri ilə bağlı mütəmadi məlumatlandırma həyata keçirməklə yanaşı, həmin orqanın fəaliyyətinin keyfiyyətinin artırılmasına da çalışmalıdır. Bunun üçün həmin şuraların öz fəaliyyətləri ilə bağlı dövrü hesabatlar verməsinə də ehtiyac var. Gələn aydan etibarən bir sıra dövlət qurumlarında şuralar yeniləcək. Ümid edirik ki, bu həm də keyfiyyət yeniləşməsi olacaq".

# Əbülfəs Qarayevin gizli planı

## Sabiq nazir Azərbaycanı tərk etməyin yollarını axtarır

***Bir müddət əvvəl məlumat yayıldı ki, sabiq mədəniyyət naziri Əbülfəs Qarayevin kürəkəni Şahriar Maleki "Green Farm Azərbaycan" MMC-nin (VÖEN-1700495641) rəhbərliyindən gedib və Mətləb Musayev Şahriar Malekinin yerinə "Green Farm Azərbaycan" MMC-yə yeni direktor təyin olunub.***

Qeyd edək ki, əslən İrandan olan Böyük Britaniya vətəndaşı Şahriar Maleki 02.11.2016-cı il tarixində dövlət qeydiyyatına alınan "Green Farm Azərbaycan" MMC-nin qanuni təmsilçisidir. Kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən "Green Farm Azərbaycan" MMC-yə 2017-ci ilin mayında Biləsuvar Rayon İcra Hakimiyyəti tərəfindən 5 min haqda məlumatlar araşdırılmadı. O, Azərbaycan mədəniyyətini çökdürməklə yaddaşlarda qalıb. Azərbaycan kinosunu sıradan çıxardı, kitabxanaları məhv etdi, tarixi abidələri xeyli ziyana saldı. Tutulan isə işçiləri- ona pul daşıyanlar oldu. Onlar tutuldu, araşdırıldı, ifadələri alındı, məlum oldu ki, bu, birbaşa nazirlə əlaqəlidir, lakin o, cinayət məsuliyyətinə cəlb olunmadı. İndi də Qarayev aradan çıxmaq üçün hazırlıq görür. Gedib xaricdə oturacaq, Azərbaycan mədəniyyətinin inkişafından oğurlanan milyonları idarə edəcək".

Bu günlərdə sabiq nazirə yaxın mənbələrdən "Unikal"a daxil olan məlumatda isə ilginc məqamlar yer alıb. Bildirilib ki, Qarayev, həqiqətən də ölkədəki biznesi ilə vidalaşaraq xaricə yolməsi maraq doğurur.

Lalə Kazımovanın adına Litvada da şirkət qeydiyyata alınıb. "TRIAT EXIRE" UAB (LTD, qeydiyyat nömrəsi 302521161) 10 ilə yaxındır ki, Litvanın daşınmaz əmlak bazarında fəaliyyət göstərir. Vülnüsdə Şaltinıy 22-də Qarayevlər ailəsinə məxsus çoxsaylı daşınmaz əmlak icarəsindən gəlir 35 min dollardan artıqdır.

Əbülfəs Qarayevin qızı Suad Qarayevanın təsisçisi olduğu daha bir daşınmaz əmlak şirkəti 2013-cü ildə Rusiya paytaxtında qeydiyyatdan keçib. Qals MMC (QALS OOO) 20 min rubl nizamnamə kapitalı ilə Moskvanın Tatarskaya küçəsi 7 ünvanında hüquqi qeydiyyata alınıb. Baş direktoru Cəfərov Fərid Oqtay oğludur. Şirkətin adı Qarayevlər ai-



hektar torpaq sahəsi ayrılıb.

Xatırladaq ki, Əbülfəs Qarayevin kürəkəninə 5 min hektar torpaq sahəsi ayıran Biləsuvar Rayon İcra Hakimiyyətinin keçmiş başçısı Mahir Quliyev 29 aprel 2020-ci il tarixində Dövlət Təhlükəsizlik Xidmətinin keçirdiyi xüsusi əməliyyat nəticəsində saxlanılaraq Bakıya gətirilib. Bundan təxminən 20 gün sonra Əbülfəs Qarayev Mədəniyyət naziri vəzifəsindən azad edilib.

Əbülfəs Qarayevin kürəkəni Şahriar Malekiyə məxsus olan "Colab" adlı kovorkinq mərkəzi də bu ilin mart ayından etibarən "Port Baku"da yerləşən ofis sahəsindən çıxıb.

Sabiq nazirin iranlı kürəkənin "Green Farm Azərbaycan" MMC-nin rəhbərliyindən getməsi ilə bağlı xəbəri şərh edərkən "Bakı" Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov demişdi ki, Əbülfəs Qarayevin bu gün azadlıqda qalması ona böyük güzəşt olunmasından qaynaqlanır. Sitat: "Əbülfəs Qarayevin müavini, digər işçiləri onun həbsinə əsas verən ittihamlar səsləndirdilər. Lakin bizlər həmin ittihamların rəsmiləşməsini, ittiham aktına salınmasını görmədik. Əbülfəs Qarayevin korrupsiya əməlləri lanmaq fikrindədir. Eks-nazirin niyyəti Azərbaycandan kənardakı biznesini şəxsən idarə eləmək və genişləndirməkdir.

İddialara görə, Əbülfəs Qarayevin xaricdəki biznesi əsasən Türkiyə, Rusiya, Litva, Panama və Maltanı əhatə edir. Onun yeganə övladı - qızı Suad Qarayeva hələ 2002-ci ildən ad və soyadının baş hərflərini özündə ehtiva edən "SQ-FUTURE" MMC-nin təsisçisidir. Həyat yoldaşı Kazımova Lalə Tofiq qızı isə 2010-cu ilin dekabrında Türkiyədə ad və soyadının abbreviaturasını ifadə edən "KL BODRUM EMLAK TİCARET VE Sanayi LİMİTED ŞİRKETİ"-ni təsis edib. Şirkət İstanbul Ticaret Sicili Memurluğunda 5000 TL nizamnamə kapitalı ilə qeydiyyatdan keçib. Nizamnaməyə görə Qarayevlərin ailə şirkəti Türkiyədə və ölkə xaricində turizm obyektləri, otel, yaşayış binaları, villa və idman təsisatlarının sahib olmaq, işlətmək hüququ əldə edib.

Qarayevlərin Türkiyədəki turizm təsisatları barədə məlumat olmasa da, keçmiş nazirin xanımının sosial şəbəkələrdəki hesabında Bodrumdakı beşulduzlu "Kuum" otelinin simvolunu (qoşaqanadlı mələk) profil şəkli seçləsinin soyad və adlarının abbreviaturasından götürülüb: Qarayev, Abulfas, Lalə və Suad.

Şirkət üzərindən Qarayevlər ailəsi Moskvada icarəyə verilmiş çoxsaylı mənzillərə, ticarət obyektlərinə sahibdir.

Əbülfəs Qarayevin özü isə rüşvət və korrupsiyadan əldə etdiyi pulları daha uzaqlara yatırmağa üstünlük verib. Onun və Milli Məclisin sabiq deputatı Hüseynbala Mirələmovun şərik olduğu RİMBA SA. offşor şirkəti 2004-cü ilin fevralında Panamada qeydiyyata alınıb. Adı "sivilizasiyadan, mədəniyyətdən uzaq, cəngəllik" anlamına gələn şirkətin 2005-ci ildə Azərbaycanda qeydiyyatdan keçmiş nümayəndəliyi isə bir neçə il əvvəl ləğv edilib.

İddialar bu yöndədir ki, yuxarıda sadalananlar Qarayevin xaricdəki biznesinin kiçik bir hissəsidir.

Yuxarıda vurğuladıq ki, sabiq nazir həmin biznesini şəxsən idarə eləmək və genişləndirmək üçün ölkəni tərk eləmək fikrindədir. Qaynaqlar onu da bildirir ki, hazırda Qarayev bunun yollarını axtarır. Məsələ ondadır ki, ötən il onun ölkədən çıxışına qadağa qoyulması ilə bağlı məlumat yayılmışdı. Həmin vaxt mövzu ilə bağlı "unikal.org"a açıqlama verən eks nazir yayılan xəbərlərin həqiqəti əks etdirmədiyini bildirmişdi. Üstəlik, harasa getmək niyyətinin olmadığını söyləmişdi. Sitat: "Ölkədən çıxmağıma heç bir məhdudiyyət qoyulmayıb. Biz hüquqi dövlətdə yaşayırıq. Hər hansı bir məhkəmə qərarı olarsa, mənə cərimə yazılarsa, ondan sonra məsuliyyət daşıyacam..."

Lakin mənbələr Qarayevin ölkədən çıxışına qeyri-rəsmi "stop" qoyulduğu iddiasında israr edirlər. Elə sabiq nazirin xaricə getməyin yollarını axtarması da bu səbəbdəndir. Onun bu niyyətini necə gerçəkləşdirəcəyi isə böyük bir müəmmadır.

# Bəzi oliqarxlarla bağlı şok iddia

## Hansı banklar kredit borcunu ödəyən vətəndaşları illər sonra "tələyə" salmağa çalışır?




***Bu günlərdə tanınmış vəkil Əkrəm Həsənov banklarda krediti olan vətəndaşlara müraciət edib. Vəkil bu barədə sosial şəbəkə hesabında yazıb.***

Əkrəm Həsənov bildirib ki, banka borcunuzu ödədikdən sonra 3 il (bankın sizə qarşı iddia müddəti) ötsə belə, ödəniş sənədlərini tullamayın: "Banka borcunuzu ödədikdən sonra 3 il (bankın sizə qarşı iddia müddəti) ötsə belə, ödəniş sənədlərini tullamayın. Yaxud da bankdan sizə qarşı tələbinin olmaması (borcunuzun bağlandığı) barədə arayış alın. ASAN-Xidmətə gedib Kredit bürosundan kredit tarixçənizi də alıb yoxlayın ki, bank həqiqətən ödənişlərinizi borcunuzun bağlanmasına yönəldib. Niyə? Çünki ölkəmizdə elə şeylər baş verir ki, təəccüblənməyə də güc qalmır. Məsələn, bir də gördünüz ki, sizi bir hüquq-mühafizə orqanına çağırıb dedilər ki, 10 il əvvəl filan banka borcunuz olub ödəməmisiz. Siz də cavab verirsiniz ki, ödəmişəm.

Müstəntiq təsdiqedici sənəd tələb edir. Deyirsiz ki, tullamışam, bankın tələbi var idisə, 3 il ərzində məhkəməyə müraciət edə bilərdi. Müstəntiq də deyir ki, xeyr, ödəməmisiz, sənədiniz də yoxdur, bank da ona görə iddia qaldırmayıb ki, onun hansısa işçisi ilə sövdələşmisiz, "şapka" vermisiz və s. və i.a. Ya borcu ödəyin, ya da barənizdə cinayət işi açılacaq".

Maraqlıdır ki, ekspertin bu şok iddiasının üstündən günlər keçsə də, nə Mərkəzi Bankdan, nə də digər aidiyyatı qurumlardan buna reaksiya verilməyib. Lakin sosial şəbəkələrdəki müzakirələr zamanı aydın olub ki, Ə.Həsənovun söylədikləri əsassız deyil, bəziləri həqiqətən də oxşar vəziyyətlə üzləşib.

Məlumdur ki, Azərbaycanda bir sıra özəl banklar hansısa oliqarxların ya birbaşa, ya da dolayısı ilə nəzarətindədir. Bu isə həmin bankların özlərini "toxunulmaz" saymasına gətirib çıxarır - ona görə də vətəndaşları hər hansı formada incitməkdən çəkinmirlər. Nəticədə isə cəmiyyətin müxtəlif təbəqələrindən, o cümlədən, deputatlar tərəfindən mütəmadi olaraq onların ünvanına sərt tənqidlər səsləndirilir.

Məsələn, bir müddət öncə millət vəkili Fəzail Ağamalı ölkədəki bir çox bankları "pula hərislikdə" günahlandırmışdı. "Azərbaycanda "cehiz faizi" deyilən yüksək faizli istehlak kreditləri ailə quranların faciəsinə çevrilib" deyən deputat bildirmişdi ki, pula bu cür hərislik heç bir ölkənin bank sistemində yoxdur: "Anormal bank sistemimizdə islahatlara ehtiyac var. Vətəndaş-bank sistemi bataqlıqdadır...".

Elə Ə.Həsənovun yuxarıda bəhs etdiyimiz iddiası da deputatın vaxtilə səsləndirdiyi bu fikirləri bir daha təsdiqləyir.

Yeri gəlmişkən, son zamanlar banklarla bağlı giley-güzarların yenidən intensivləşdiyi hiss olunur. Onlardan bir neçəsini xatırladaq. Məsələn, müğənni Malik Kələntərli bir çox bankın yüksək faiz çıxmasını tənqid edib. O bildirib ki, banklar bildiriş mesajları üçün tutulan faizi qaldırıblar: "Bank sahiblərinə və işçilərinə maraqlı sualım var. Müştəri olduğum bankın sms xəbərdarlıq sistemi əvvəllər 1 manat idi. Sonra bir müddət keçdi 2 manat oldu. Bu gün elan gəlib ki, sms bildirişlərin qiyməti artıq 3 manat olacaq. Yaxşı... Bir sualım var, bu sms bildirişləri və xəbərdarlıq sistemi benzinlə işləyir, xaricdən gəlib gömrükdə dayanır, onu yaratmaq üçün hansısa kimyəvi maddələrdən istifadə etmək lazımdır? Yox... Ola bilsin ki, mən nələrsə bilmirəm, üzr istəyirəm. İzah edin bilək, bu sms xəbərdarlıq və bildiriş sisteminin qiyməti nəyə görə qalxır? Niyə?".

Və ya: Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov Bakıda keçirilən "Bank mübahisələrinin uğurlu həlli yolları" mövzusunda Elmi-Praktik konfransda bildirdi ki, "Azərbaycandakı kommersiya banklarının verdikləri kreditlərin 76 %-i Bakının payına düşür, ona görə də regionlarda kreditlər əlçatan deyil".

"Regionlarda xüsusilə sahibkarların kreditlərə əlçatanlığı aşağı səviyyədədir. Paytaxtdan kənarda kreditləşmə imkanlarından kifayət qədər yaxşı istifadə edilmir", - deyə Bayramov qeyd eləmişdi.

Əksəriyyəti müxtəlif oliqarxların birbaşa nəzarətində və ya himayəsində olan özəl banklarla bağlı bu tip tənqidlərin, iradların, şikayətlərin siyahısını kifayət qədər uzatmaq olar. Lakin nə buna, nə də əlavə şərhə ehtiyac var. Sadəcə onu deyək ki, görünən odur, Mərkəzi Bank ölkənin bank sisteminin sağlamlaşdırılması, qüsurların aradan qaldırılması üçün çox iş görməlidir.

***Toğrul Əliyev***

# Ərazilərin 20 faizə yaxını minalardan təmizlənib




***"Qarabağ iqtisadi rayonunun işğaldan azad olunmuş əraziləri Ağdam, Füzuli, Xocavənd, Tərtər və Xocalı rayonlarını əhatə edir. Qeyd olunan rayonların ümumi ərazisi 6,244 kvadratkilometrdir və həmin rayonlar üzrə ümumilikdə məcburi köçkün əhali sayı 275,552 nəfərdir. Təbii ki, yenidənqurma və bərpa proseslərinin birinci mərhələsi regionun və şəhərlərin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi üçün ümumi və baş planların hazırlanmasıdır. Artıq Ağdam və Füzuli şəhərlərinin baş planları tam təsdiqlənib, Suqovuşan və Hadrut qəsəbələrinin baş planları isə yekunlaşıb".***

"Unikal" xəbər verir ki, bunu Ağdam şəhərindəki Konfrans Mərkəzində keçirilən "Ağdamın dirçəlişi" adlı tədbirdə Qarabağ İqtisadi Rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov deyib.

"Qarabağda həyata keçirilən yenidənqurma və bərpa işləri zamanı qarşılaşdığımız ən əsas problemlərdən biri ərazilərin minalarla hədsiz çirklənməsidir. Bildirmək istərdim ki, 10 noyabr 2020-ci il tarixli Üçtərəfli Bəyanatdan sonra, indiyədək Ermənistanın mina terroru nəticəsində 300-dən artıq Azərbaycan vətəndaşı həlak olmuş və ya ağır yaralanmışdır. Lakin, bu istiqamətdə üzləşdiyimiz bütün çətinliklərə baxmayaraq, Qarabağ iqtisadi rayonu daxilində işğaldan azad edilmiş ərazilərin 18,1 faizi, yəni 42,635 hektar ərazi minalardan və digər partlamamış hərbi sursatlardan təmizlənib və minatəmizləmə əməliyyatlarını tam miqyasda davam etdiririk. Hazırda baza infrastruktur layihələrinin həyata keçirildiyi ərazilər və tikinti aparılacaq sahələr prioritet təşkil edir. Qeyd olunan təmizlənmiş ərazilərdə indiyədək 61,163 mina və partlamamış hərbi sursat aşkarlanmışdır. Minatəmizləmə işləri ANAMA başda olmaqla, Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Fövqəladə Hallar Nazirliyinin müvafiq bölmələri tərəfindən, eyni zamanda özəl şirkətlər tərəfindən aparılır", - deyə o əlavə edib.

# Naxçıvanda 4 nəzarət tədbirindən 2-i başa çatdırılıb

***Bu ilin ilk 6 ayı ərzində Naxçıvan Muxtar Respublikasında 4 nəzarət tədbirinin həyata keçirilməsi barədə qərar qəbul edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Hesablama Palatasının 2023-cü ilin altı ayı üzrə fəaliyyətinə dair məlumatında qeyd olunub.

Bildirilib ki, Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin İş Planı üzrə 4 nəzarət tədbiri keçirilməsi ilə bağlı qərar qəbul edilib, 2-si başa çatdırılıb.

# Həftəsonu "Kənddən Şəhərə" yarmarkası təşkil olunacaq

***15-16 iyul tarixlərində Kənd Təsərrüfatı Nazirliyi tərəfindən "Kənddən Şəhərə" həftəsonu yarmarkası keçiriləcək.***



"Unikal" xəbər verir ki, yarmarkanın təşkilində əsas məqsəd yerli fermerlər üçün alternativ satış kanalı yaratmaq, eyni zamanda şəhər sakinlərini təbii, mövsümi və sağlam kənd məhsulları ilə dolğun şəkildə təmin etməkdir.

Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 ("Gənclik" metro stansiyasının yanı) ünvanında keçiriləcək yarmarkada müxtəlif regionlardan dəvət olunan fermerlər yerli kənd təsərrüfatı və qida məhsullarını satışa çıxaracaqlar.

Satışa çıxarılan məhsulların keyfiyyətinə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi nəzarət edəcək. Belə ki, yarmarkada Səyyar Qida Laboratoriyası fəaliyyət göstərəcək. Vətəndaşlar laboratoriyanın xidmətlərindən faydalana bilərlər.

Qeyd edək ki, fermerlər yarmarkada tamamilə ödənişsiz şəkildə iştirak edəcəklər. Onlar piştaxta, tərəzi, soyuducu və digər lazımi ləvazimat və avadanlıqlarla təmin olunacaqlar. Həmçinin, məhsullarının daşınmasında çətinlik çəkən fermerlərə loqistik dəstək göstərilərək məhsulları təsərrüfatlarından birbaşa yarmarka keçirilən ünvana qədər daşınacaq.

# 10 heyvan kəsimi və ət satışı məntəqəsi ilə əlaqədar tədbir görüldü



***Qida Təhlükəsizliyi Agentliyi ölkədə heyvan kəsiminin müasir tələblərə uyğunlaşdırılması, müasir kəsim məntəqələrinin təşkil olunması və qanunsuz heyvan kəsimi fəaliyyətinin qarşısının alınması istiqamətində nəzarət tədbirlərini davam etdirir.***

Agentliyin İnformasiya təminatı və innovativ həllər şöbəsindən "Unikal"a verilən məlumata görə, iyulun 12-də respublika üzrə fəaliyyət göstərən ət satışı və heyvan kəsimi məntəqələrində aparılan monitorinqlər zamanı Bakı şəhəri, Qobustan, Şamaxı, Tovuz və Ağcabədi rayonlarında bir sıra nöqsanlar aşkar olunub.

Aşkarlanmış uyğunsuzluqlarla əlaqədar 10 heyvan kəsimi və ət satışı məntəqəsi ilə bağlı inzibati tədbir görülüb.

Baytarlıq-sanitariya ekspertizası aparılmadan heyvan kəsimi və ət satışı fəaliyyəti ilə məşğul olan və barələrində inzibati protokol tərtib edilmiş və ya qanunsuz metal konstruksiyaları sökülən məntəqələrin siyahısı ilə linkində tanış olmaq olar.

# BMT QİÇS epidemiyasının bitməsinin təxmini tarixini açıqladı



***Dünyada QİÇS epidemiyası 2030-cu ilə qədər dayandırıla bilər.***

"Unikal" xəbər verir ki, bu barədə Birləşmiş Millətlər Təşkilatının HİV/AİDS üzrə Birgə Proqramının (UNAIDS) saytındakı hesabatda bildirilir.

"UNAIDS-in hesabatında QİÇS epidemiyasının 2030-cu ilə qədər dayandırıla biləcəyi iddia edilir və bu məqsədə çatmaq üçün yollar göstərilir", - məlumatda deyilir.

Bununla belə, hesabatda QİÇS-ə yoluxmaların 23%-nin yeni infeksiyaların sayının "həyəcanverici sürətlə" artdığı Asiya-Sakit Okean regionunda olduğu bildirilir.

***Nuranə Abbasova***

# Region rəislərini icra başçıları ilə görüşdürən səbəb



***SOCAR "Azəriqaz" İB rəhbərliyinin təşəbbüsü ilə Regional İdarələrin məsul şəxslərinin yerli İcra Hakimiyyətinin başçıları ilə görüşləri keçirilir. Məqsəd sakinlərin qaz təchizatı ilə bağlı üzləşdikləri problemlərin operativ həllinə nail olmaqdan ibarətdir.***

"Unikal" xəbər verir ki, bu səbəbdən Ağsu Regional Qaz İstismarı İdarəsinin rəisinin regionda yerləşən İcra Hakimiyyətlərinin başçıları ilə görüşləri baş tutub.

Həmçinin keçirilən görüşlər zamanı Birlik tərəfindən həyata keçirilən layihələr, təsərrüfatda aparılan islahatlar və təkmilləşdirmə tədbirləri, həmçinin qaz təsərrüfatının mövcud vəziyyəti, yeni yaşayış massivlərinin və kəndlərin qazlaşdırılması ilə bağlı fikir mübadiləsi aparılıb. Şəhid ailələrinin və qazilərin hər zaman diqqətdə saxlanılmasının vacibliyi vurğulanıb.

# İqtisadi fəal əhalinin sayı açıqlanıb



***Cari ilin iyulun 1-i vəziyyətinə ilkin məlumatlara əsasən iqtisadi fəal əhalinin sayı 5 milyon 224,3 min nəfər olub, onlardan 4 milyon 934,5 min nəfərini məşğul əhali təşkil edib.***

Dövlət Statistika Komitəsindən "Unikal"a bildirilib ki, cari il iyunun 1-i vəziyyətinə muzdla çalışan işçilərin sayı 1 milyon 726,3 min nəfərdir.

İqtisadiyyatın dövlət sektorunda 898,6 min nəfər, qeyri-dövlət sektorunda isə 827,7 min nəfər olub.

# "Elmi ad biznesi"ndə məmur izləri

## Azərbaycanda rüşvətlə "alim" olanlar kimlərdir? - İlginc iddialar...



***Yola salmaq üzrə olduğumuz həftə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri çərçivəsində Ali Attestasiya Komissiyasının İqtisad elmləri üzrə Ekspert şurasının üzvü - elmi katibi Şəfa Əliyevin qanunsuz əməlləri ifşa edildi.***

Baş Prokurorluğun mətbuat xidmətindən bununla bağlı yayılan açıqlamada bildirilib ki, əməliyyat-istintaq tədbirləri ilə Şəfa Əliyevin işlədiyi qurumun vəzifəli şəxslərinin qərarlarına həqiqi təsir imkanlarından istifadə edərək müxtəlif şəxslərdən aldığı pul vəsaitləri müqabilində onlara elmi dərəcələrin verilməsinə nail olmasına və vəzifə səlahiyyətlərindən sui-istifadə etməsinə əsaslı şübhələr müəyyənləşdirilib.

Faktla bağlı başlanmış cinayət işi üzrə toplanmış sübutlar əsasında Şəfa Əliyev Cinayət Məcəlləsinin 312-1-ci (vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə - nüfuz alveri) və 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək məhkəmənin qərarı ilə barəsində ev dustaqlığı və vəzifədən kənarlaşdırma qətimkan tədbirləri seçilib.

Hazırda iş üzrə qanunazidd hərəkətlərə yol vermiş digər şəxslərin müəyyən edilməsi istiqamətində əməliyyat-istintaq tədbirləri davam etdirilir.

Ali Attestasiya Komissiyası da məsuliyyətə cəlb edilən mütəxəssis-ekspert Şəfa Əliyev barədə açıqlama yayıb. Bildirilib ki, qurumun nəzdində 25 elm sahəsi üzrə 15 ekspert şurası fəaliyyət göstərir.

Qeyd olunub ki, ekspert şuralarının fəaliyyəti müstəqildir və onların tərkibinə Komissiyanın əməkdaşları olmayan müxtəlif müəssisələrdən cəlb olunmuş ekspertlər daxil edilir: "Hazırda ekspert şuralarının fəaliyyətinə elmi müəssisə və təşkilatlardan, ali təhsil müəssisələrindən müvafiq elm sahələri üzrə 300-dən çox yüksəkixtisaslı mütəxəssis-ekspert cəlb edilib. Ekspert şuralarının fəaliyyətinin səmərəliliyini artırmaq, o cümlədən çatışmazlıqların, neqativ halların qarşısını almaq məqsədilə onların tərkibi mütəmadi olaraq yenilənir.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin məlumatında adı çəkilən iqtisad elmləri doktoru, professor Şəfa Əliyev Komissiyanın əməkdaşı deyil, Sumqayıt Dövlət Universitetinin professoru vəzifəsində çalışır və Komissiyanın Rəyasət Heyətinin 29 sentyabr 2020-ci il tarixli qərarı ilə İqtisad elmləri üzrə ekspert şurasının üzvü və elmi katibi təyin edilib.

Komissiya onun nüfuzuna xələl gətirə biləcək bu kimi neqativ halların müəyyən edilməsində maraqlıdır və konkret bu işin obyektiv araşdırılmasında müvafiq qurumlara lazımi dəstək göstərəcək".

Xatırladaq ki, Azərbaycanda uzun müddətdir ki, imkanlı və vəzifəli şəxslərin müxtəlif yollarla elmi ad almağa çalışdığı barədə iddialar istər mediada, istərsə də cəmiyyətdə müzakirə mövzusudur. Hətta bir neçə il əvvələdək KİV-də "elmi biznes", "dissertasiya bazarı" ifadələrinə mütəmadi rast gəlinirdi.

Düzdür, 2013-cü ildə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) müxbir üzvü, Coğrafiya İnstitutunun ovaxtkı direktoru Ramiz Məmmədov ölkəmizdə məmurların elmi ad almasının qadağan edildiyi barədə açıqlama vermişdi. R.Məmmədov bunu vəzifəli şəxslərin Dissertasiya Şurasına təsir etmə ehtimalları ilə əlaqələndirmişdi. O, həmçinin qeyd etmişdi ki, daha əvvəl anoloji addım Rusiyada da atılıb. "Yeni qaydaya görə, elmi ad almaq istəyən məmur vəzifəsi ilə vidalaşmalıdır" - müxbir üzv əlavə eləmişdi.

Lakin bu açıqlamanın üzərindən çox keçmədi ki, mətbuatda məmurların elmi ad həvəsinin davam etdiyi, onların yalnız özlərinin deyil, ailə üzvlərinin də bu həvəsə düşdükləri və istəklərini rahatca gerçəkləşdirdikləri, eyni zamanda biznesla məşğul olan, yaxşı maliyyə imkanına malik şəxslərin də eyni yolu tutduqları, dissertasiya yazdıraraq ən azından fəlsəfə doktorluğu elmi dərəcəsi aldıqları barədə məlumatlar, iddialar yenidən gündəmə gəldi. Ali Attestasiya Komissiyasının İqtisad elmləri üzrə Ekspert şurasının üzvü - elmi katibi Şəfa Əliyevin qanunsuz əməlləri barədə Baş Prokurorluğun rəsmi açıqlaması bu cür məlumatlarda, iddialarda həqiqət payının kifayət qədər yüksək olduğunu ortaya qoydu.

Mövzu ilə bağlı elmi dairələrə yaxın olan və adının çəkilməsini istəməyən mənbənin sözlərinə görə, Azərbaycanda hər hansı şəxs dissertasiya yazdırmaq istəyirsə, bunun müqabilində kifayət qədər yüksək məbləğ ödəməlidir. Həmin məbləği ödəməyə isə hər kəsin maddi imkanı çata bilməz. "Buna yalnız vəzifəli şəxslər, iş adamları, onların yaxınları, doğmaları qadirdir. Ona görə də əgər Ali Attestasiya Komissiyasının müxtəlif şəxslərdən aldığı pul vəsaitləri müqabilində onlara elmi dərəcələrin verilməsinə nail ola bilibsə, onda həmin şəxslərin məhz yuxarıda sadaladığımız kateqoriyaya aid olduğuna şübhə yoxdur" deyə həmsöhbətimiz vurğulayıb.

Həmsöhbətimiz bu yaxınlarda elm və təhsil naziri Emin Əmrullayevin Azərbaycanda plagiatlığa qarşı mübarizənin gücləndirilməsi barədə çıxışını xatırladıb. Xatırladaq ki, media qarşısında çıxış edən nazir saxtakarlığa əl atan elm adamlarının fəaliyyətinin ömürlük qadağan olunmasını təklif eləmişdi. "Hesab edirəm ki, əqli mülkiyyətlə bağlı yuxarı yaş təbəqələri üçün cəza tədbirləri ağırlaşdırılmalıdır. Fikrimcə, plagiatı sübut edilmiş adamın elmi fəaliyyəti ömürlük qadağan olunmalıdır. Bunun başqa yolu yoxdur", - o demişdi.

Həmsöhbətimizin qənaətinə görə, Azərbaycanda yazılan dissertasiyalarda plagiata rast gəlinməsi məhz "elmi ad biznesi"nin nəticəsidir. Hələ də elmi dərəcələr kimlər üçünsə saxta alimlik ünvanı, kimlər üçünsə də qazanc mənbəyidir. "İmkanlı, vəzifəli şəxslərə dissertasiya yazanlar bir qayda olaraq başqa ölkələrin alimlərinin tədqiqat əsərlərindən bəzən bütöv hissələri "çırpışdırırlar". Çünki həmin dissertasiyanı sifariş edənlərin müdafiə zamanı şəxsi nüfuzları, vəzifə səlahiyyətlərindən sui-istifadə, yaxud maddi imkan yolu ilə plagiat "elmi işi" asanlıqla Ali Attestasiya Komissiyasından da keçirəcəklərini düşünürlər. Onlar belə düşünməkdə haqsız deyillər. Sözügedən Komissiyanın İqtisad elmləri üzrə Ekspert şurasının üzvü - elmi katibi Şəfa Əliyevin qanunsuz əməlləri də bunu təsdiqləyir" deyə həmsöhbətimiz bildirib.

***Sənan Mirzə***

## 5.3.7. işğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Bu gün laçınlıların yuxusunun çin olduğu Gündür!

## Laçınlılar Böyük Qayıdışın sevincini öz ana torpaqlarından “Unikal” qəzetinə danışdılar...



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. “Unikal” qəzeti xəbər verir ki, iyulun 13-də növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı “Qobu park 3” yaşayış kompleksindən yola salınıb. Bu mərhələdə Laçın şəhərinə daha 23 ailə - 85 nəfərin köçürülməsi reallaşıb. Köçürülən ailələr Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşacaqlar.***

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Daha da gözəlləşən və abadlaşan Laçın şəhərinin sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildiriblər. Bu yolda canlarından keçən şəhidlərimizi böyük ehtiramla yad ediblər.

Laçın şəhərinə ailələrin yola salınması mərasimində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin və Laçın Rayon İcra Hakimiyyətinin rəsmiləri iştirak ediblər.

Bununla da Laçın şəhərində 93 ailə, yəni 351 nəfərin daimi məskunlaşması təmin edilib.

Onlardan biri də Şükürovlar ailəsidir. Bakir Şükürov düz 31 ildən sonra doğma Laçınına qovuşur. Laçından məcburi köçkün düşəndə 45 yaşı olub Bakir dayının. 76 yaşında 31 ildən sonra Laçına, doğma torpağına geri dönüb.

“31 ildə nələr yaşamadım ki? Neçə kitab yazılar köçkünlük həyatımı danışsam. Bu gün isə elə bil yenidən dünyaya göz açmışam. Öz əllərimlə çay daşlarından ikimərtəbəli ev tikmişdim. Erməni işğalçıları viran qoydu yurdumu. Evimi dövlətim tikib verdi mənə. Hər şeyi bərpa etmək olur. Bircə itirilən vətənsiz keçən illərdən başqa. Bəlkədə Allahın sevimli bəndəsiyəm ki, torpağıma qovuşmadan ölmədim. Şükür qovuşdurana. Çox danışmayım, ağlayacam. Vətənsiz çox kövrək olmuşam. Ağlamağa bəhanə axtarıram. Amma bu dəfə sevincimdən ağlayacam. Çünki bu gün öz ana yurduma qovuşmuşam” deyir Bakir dayı.

Fikrət Məmmədov isə yoldadır. Laçına gedən yolda. Düz 31 ildən sonra o yolu geri qayıdır. Bu dəfə əbədilik, heç vaxt geri dönməmək, əbədi öz yurdunda yaşamaq üçün. Çox həyəcanlıyam deyir Fikrət dayı. 69 yaşlı F. Məmmədov Laçından çıxanda 37 yaşı olub. 31 il sonra həsrət sona çatır:”8 nəfərlik ailə üzvüm ilə birgə gedirik. İstəyirəm hər qanadım olsun, uçub düşüm Laçına. Hərdən özümü qınayıram. 31 il dözmüşəm, bir neçə saat Laçına gedib çatmağa səbr edə bilmirəm. Həyəcandan dilim-dodağım təpiyir. Keçirdiyim hisləri sizin oxucularınıza çatdırmağa acizəm. Bilmirəm necə ifadə edim, bircə onu deyə bilərəm ki, Vətənə qayıtmaq yenidən doğulmaqdır. Allah heç kimi doğmalarının qəbrinə həsrət qoymasın. Mən ən çox o torpağa qoyduğum iki cavan qardaşımın qəbrini görmək istəyirəm. Onları o yurdda əmanət qoymuşdum torpağa. Bu gün gedib əmanətimə sahib çıxacam. Qardaşlarımın ruhu yəqin məni gözləyir. Bu 31 ildə hər dəfə yuxumda ziyarət etmişəm onları. Bu gün yuxularımın çin olduğu gündür. Laçına Böyük Qayıdış günüdür. Bu müqəddəs günü, bu böyük günü unutmaq olmaz”.

Novruzov Tofiq isə 31 il iki aydan sonra Laçınına qovuşur. 68 yaşlı Tofiq dayının Laçından çıxanda 37 yaşı olub. Bu gün ömrünün ixtiyar çağında yenidən Laçına geri qayıdır. Deyir ki,ən çox yurdunda uşaqlıq xatirələrinə qovuşduğu üçün sevinir.

“İndi deyə bilərəm ki, tam xöşbəxtəm. İnsan torpaqsız, vətənsiz xöşbəxt ola bilmirmiş. Həmişə elə bilirdim bir yarım yoxdur. Ən sevincli günümdə də özümü tam xöşbəxt hiss edə bilmirdim. Bu gün ürəklə deyirəm ki, tam xöşbəxtəm. Laçını artıq yuxularımda görməyəcəm. Uşaqlıq xatirələrimin ardınca yuxuda qaçmayacam. Uşaqlığımın keçdiyi yerləri qarış-qarış öz ayağımla gəzəcəm. Bundan böyük xöşbəxtlik olmaz! Vətənimdə çox xöşbəxtəm. Bütün laçınlılara bu hissi yaşamağı arzulayıram. Torpaqlarımızı bizə qaytaran Ali baş komandanımıza və qəhrəman oğullarımıza minnətdaram. Laçının laçın vaxtları başlayır. Bu günə görə yaşamağa, yaşlanmağa dəyər”.

Qeyd edək ki, Vətən müharibəsində Azərbaycanın hərbi yolla qazandığı qələbə nəticəsində Ermənistan rəhbərliyi öz məğlubiyyətini qəbul etməyə məcbur olmuşdur və 2020-ci ilin noyabrın 10-da kapitulyasiya aktı Ermənistan tərəfindən imzalandı. Laçın şəhəri də daxil olmaqla rayonun böyük bir hissəsi artıq siyasi yollarla azad edilmişdir. Dövlətimiz işğaldan azad olunan bütün ərazilərdə, o cümlədən Laçında sürətlə bərpa-quruculuq işləri həyata keçirir. Həyata keçirilən bütün layihələr Böyük Qayıdışa dair I Dövlət Proqramında nəzərdə tutulduğu kimi yüksək səviyyədə icra olunur. Bərpa-quruculuq işləri ilə yanaşı Azərbaycan dövləti Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yeni idarəetmə üsulu həyata keçirir. Laçın rayonunda həyata keçirilən bərpa-quruculuq layihələri haqqında ölkə başçısının xüsusi nümayəndənin qəbul edərkən söylədiyi fikirlər onu deməyə əsas verir ki, Azərbaycan dövlətinin güclü iqtisadi potensialı keçmiş məcburi köçkünlərin doğma yurdlarına qısa zamanda qayıtmalarını təmin edəcək.

Yenidənqurma prosesinin birinci mərhələsində Laçın şəhərində 500-ə yaxın fərdi ev inşa edilir və ya ermənilər tərəfindən dağıdılmış evlər yenidən bərpa olunur. Çoxmərtəbəli səkkiz yaşayış binası yenidən qurulur və 30-dan çox ictimai bina inşa edilir. Eyni zamanda, Laçın şəhərində Heydər Əliyev Fondunun xətti ilə məscid inşa ediləcək. Bununla yanaşı, Zabux və Sus kəndlərinin tamamilə yenidən qurulması prosesinə start verilmişdir. Zabux kəndində 1000-dən çox, Sus kəndində isə 300-dən çox insan yerləşəcək. Güləbird və Qorçu kəndlərinin təsdiqlənmiş Baş planına əsasən birinci mərhələdə Güləbird kəndində 2400, Qorçu kəndində isə 1300 insanın yerləşməsi nəzərdə tutulur. Azərbaycan Prezidenti cənab İlham Əliyev onu da qeyd etmişdir ki, tikilən, yenidən qurulan və əsaslı təmir edilən evlərin sayı göstərir ki, minlərlə insan artıq bu ilin sonuna qədər Laçın şəhərində yaşayacaq və laçınlılar bu il öz doğma diyarına qayıdacaqlar.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

# Vaqif Poeziya Günlərinə start verilib

***Heydər Əliyev Fondu, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Yazıçılar Birliyinin təşkilatçılığı ilə keçirilən Vaqif Poeziya Günləri iyulun 13-də şairin doğma şəhərində - Qazaxın Yuxarı Salahlı kəndində Vaqifin büstünə gül qoyulmaqla başlayıb.***



Sonra mədəniyyət və incəsənət xadimləri, Azərbaycan Yazıçılar Birliyinin üzvləri, gənc yazıçılar və şairlər Qazax şəhərinin mərkəzindəki “Mütəfəkkirlər parkı”nda toplaşıblar.

Çıxış edən mədəniyyət nazirinin müavini Murad Hüseynov Vaqif Poeziya Günlərinin keçirilməsinin əhəmiyyətindən danışıb. Bildirib ki, Şuşa işğaldan azad olunandan sonra dövlət başçımızın ilk sərəncamlarından biri Şuşada həm “Xarıbülbül” festivalının, həm Vaqif Poeziya Günlərinin keçirilməsi oldu. 2021-ci ildən başlayaraq hər iki layihə Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilir.

O qeyd edib ki, Vaqif Qazaxda dünyaya göz açsa da, Şuşada məşhurlaşıb və orada dəfn olunub. Qazaxda start götürən Vaqif Poeziya Günləri iyulun 14-15-də mədəniyyət paytaxtımız Şuşada davam edəcək.

Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi çıxışında deyib ki, Şuşa azad olunandan sonra artıq 3-cü ildir Vaqif Poeziya Günləri keçirilir: “Hələ sovet dövründə Vaqif Poeziya Günləri Vaqifin vətənində - Qazaxda start götürürdü, Şuşada davam edirdi. Bu il qərar belə oldu ki, poeziya günləri ənənəyə uyğun olaraq Qazaxda başlasın. Bu gün artıq layihəyə start verilib”.

Ədəbiyyatşünas Rüstəm Kamal çıxışında qeyd edib ki, Vaqif yazılı ədəbiyyatımızın milli etnik kodlarla köklənməsində və poeziyamızda xalqımızın öz obrazının yaradılmasında müstəsna rolu olmuş şairdir. Vaqif başdan-ayağa işıq poeziyasıdır. Onun şeirlərində ən çox mənalanan, ən çox hallanan, ən çox diqqət çəkən nur, işıq, şölə sözləridir. “Dövlətimizin başçısı İlham Əliyev və Heydər Əliyev Fondu bizim mədəniyyətimizi, ədəbiyyatımızı klassiklərimizi himayə edir. Onların yenidən milli yaddaşımıza qayıtmasında böyük rol oynayır. Bir ziyalı kimi ölkə rəhbərliyinə təşəkkür edirəm”, - deyə o, əlavə edib.

Şair-publisist Əkbər Qoşalı bildirib ki, sabah Vaqifin vətənindən - Qazaxdan Şuşaya yola düşəcək, orada poeziya günlərində iştirak edəcəklər. Bu tədbirin həm də Türk dünyasının mədəniyyət paytaxtında Türk dünyasından gəlmiş şair və yazıçıların iştirakı ilə keçirilməsi mühüm hadisədir.

Şair İbrahim İlyaslı da Vaqifin Azərbaycan ədəbiyyatındakı misilsiz xidmətlərindən, onun yaradıcılığının ədəbiyyatımıza bəxş etdiyi zənginliklərdən danışıb.

Daha sonra söz şairlərə və aşıqlara verilib, Molla Pənah Vaqifin qəzəlləri səslənib.



## Aşurada bu ünvanlarda qanvermə aksiyası keçiriləcək - SİYAHI

***Bu il Məhərrəmlik ayının Aşura günündə qanvermə aksiyalarının keçiriləcəyi ünvanlar açıqlanıb.***

"Unikal" xəbər verir ki, bu barədə Qafqaz Müsəlmanları İdarəsindən məlumat verilib.

**Bakı şəhəri üzrə:**

Xəzər rayonu Mirmövsüm Ağa Ziyarətgahı

Nəsimi rayonu Göy məscidin (Əjdərbəy) mərasim zalı

Nizami rayonu Şah Abbas məscidi

Səbail rayonu Bibiheybət məscid ziyarətgahı

Suraxanı rayonu Qaraçuxur məscidi

Yasamal rayonu Təzə Pir məscidi

Yasamal rayonu Hacı Soltanəli məscidi

Binəqədi rayonu İmam Əli məscidi

Mərkəzi Qan Bankının Gəncə, Lənkəran, Sumqayıt, Mingəçevir, Şəki, Şirvan, Bərdə və Quba bölmələri.

Ümumilikdə, qanvermə aksiyaları 8 məscid və ziyarətgahda, habelə 8 səhiyyə müəssisəsində həyata keçiriləcək.

## Stress saç tökülməsinə səbəb ola bilərmi?

***Stressin saç tökülməsinə səbəb olduğunu dilə gətirən mütəxəssislər, bu vəziyyətdən ən çox qadınların təsirləndiyini ifadə edirlər.***



"Unikal" xəbər verir ki, bu barədə "The New York Times" elm adamlarının araşdırmalarına istinadən məlumat dərc ediblər. Mütəxəssislər həddindən artıq saç tökülməsinin müvəqqəti olduğunu söyləyirlər.

Bildirilir ki, stressdən saç tökülürsə, tüklərin böyüməsində rol oynayan D vitamini və bəzi telogen effluviumlu xəstələrdə çatışmazlığı olduğu sübut edilən B12 vitamini ehtiva edən gündəlik multivitamin qəbul etməyi tövsiyə edilir.

Saç tökülməsini müalicə etmək üçün xüsusi olaraq satılan yüksək dozada biotin ehtiva edən reseptsiz əlavələri tövsiyə edilmir. Biotin əlavələrinin tiroid hormon testlərinin nəticələrinə müdaxilə etdiyini və bəzən sızanaqların alovlanmasına səbəb ola biləcəyini qeyd edilir. Saç uzanmasını sürətləndirmək istəyənlər üçün reseptsiz yerli məhsullardan istifadə edə bilərlər.

Mayami Universiteti Miller Tibb Məktəbində saç tökülməsini müalicə edən dermatoloq Dr. Antonella Tosti deyir ki, bu müalicələr saçların daha sürətli uzanmasına kömək edə bilər. Bununla belə, o, əlavə edib ki, tez-tez stress nəticəsində saç tökülməsi olur və saçlar öz-özünə uzanır.

Onun sözlərinə görə, saç tökülməsi adətən bir neçə həftə, bəlkə də bir-iki ay davam edə bilər. Ancaq üç-dörd aydan sonra tökülmə davam edərsə, həkimə müraciət etmək lazımdır.

*Gülayə Mecid*

# Bu tarixdə dövlət qulluğuna qəbul üçün imtahan keçiriləcək

***Dövlət İmtahan Mərkəzi tərəfindən 13 avqust 2023-cü il tarixində dövlət qulluğu vəzifələrinin B növünə aid olan BA və BB altqruplarına uyğun olan vəzifələr üzrə test imtahanı keçiriləcək.***



DİM-dən "Unikal"a verilən məlumata görə, imtahanda iştirak etmək üçün qeydiyyat 13 iyul saat 14:00-dan 1 avqust saat 18:00-dək aparılacaq. İmtahan Bakı şəhərində keçiriləcək və namizədlər üçün 2500 yer ayrılıb.

İmtahan yeri (binası) barədə məlumat imtahandan 5 gün əvvəl Mərkəzin saytına yerləşdiriləcək "İmtahana buraxılış vərəqəsi"ndə qeyd olunacaq.

İmtahanda iştirak etmək istəyən namizədlər DİM-in portalında "Şəxsi kabinet"lərini (şəxsi kabineti olmayanlar) yaratmalıdırlar. Kabinet yaradılan zaman pul hesabı açılır. İmtahanlarda iştirak üçün ödəniş tarifləri ilə buradan tanış ola bilərsiniz. "Şəxsi kabinet"də olan pul hesabına vəsait daxil etmək üçün müxtəlif ödəniş üsullarından (ətraflı məlumat www.payment.dim.gov.az saytında verilmişdir) istifadə etmək olar. "Şəxsi kabinet" yaradıldıqdan və hesaba lazımi vəsait daxil edildikdən sonra imtahanlarda iştirak etmək üçün DİM-in internet portalında "Dövlət qulluğuna qəbul üzrə test imtahanında iştirak etmək üçün onlayn qeydiyyat" xidməti vasitəsilə qeydiyyatdan keçmək lazımdır. Qeydiyyatdan keçən və imtahanda iştirak etməyən namizədlərin ödədiyi məbləğ geri qaytarılmır.

Qeydiyyat zamanı ali təhsil haqqında məlumatlar "Tələbə-məzun" dövlət elektron məlumat sistemi vasitəsilə yoxlanılır və namizəd haqqında məlumatlar sistemdə olmadıqda onun qeydiyyatı aparılmır. Bu halda Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə qəbul olunmuş namizəd ona aid məlumatların "Tələbə-məzun" dövlət elektron məlumat sisteminə daxil edilməsi üçün bitirdiyi təhsil müəssisəsinə müraciət etməlidir. Xaricdə təhsil almış namizədlər və sistemdə ali təhsil haqqında məlumatı olmayan digər namizədlər DİM-ə (Bakı şəhəri, Nəsimi rayonu, Akademik Həsən Əliyev küçəsi, 299 və ya DİM-in regional bölmələrinə) müraciət etməlidir. Məlumatları "Tələbə-məzun" dövlət elektron məlumat sisteminə daxil edilmiş namizədlər qeydiyyatdan keçə bilərlər.

Qeydiyyatdan əvvəl namizədlər təhsil haqqında məlumatlarının "Tələbə-məzun" dövlət elektron məlumat sistemində olub - olmadığını "Elektron hökumət" portalından DİM-in "Vətəndaş haqqında "Tələbə-məzun" dövlət elektron məlumat sistemindən çıxarış" elektron xidməti vasitəsilə öyrənə bilərlər.

Namizədlərin qeydiyyatdan keçməmişdən əvvəl vəzifə qrupunu düzgün seçmələri, imtahana daha səmərəli hazırlaşmaları və imtahanda davranış qaydaları ilə tanış olmaları üçün aşağıdakılardan istifadə etmələri tövsiyə olunur:

Test imtahanında yoxlanılacaq bilik sahələri və hər sahə üzrə test tapşırıqlarının sayı və vəzifə altqrupları üzrə keçid balları;

Test imtahanı proqramları;

"Namizədin yaddaş kitabçası" - kağız daşıyıcılar vasitəsilə keçirilən test imtahanları üçün;

Namizəd şəxsiyyətini təsdiq edən sənədi və imtahana buraxılış vərəqəsini təqdim etməklə test imtahanında iştirak edir.

Test imtahanından müvəffəqiyyətlə keçən namizədə altqruplara daxil olan vəzifələrə uyğun olaraq sertifikat verilir. Sertifikatın qüvvədə olma müddəti 5 ildir. Namizəd dövlət qulluğu vəzifələri üzrə bir neçə sertifikat ala bilər.

İnzibati vəzifələrin müvafiq altqrupu üzrə Sertifikata malik olan şəxs Sertifikatda nəzərdə tutulmuş vəzifə, habelə həmin altqrupun aid olduğu qrup daxilində daha aşağı altqruplara uyğun olan vəzifə üzrə keçirilən müsahibələrdə iştirak edə bilər. Elan edilmiş müsahibədə iştirak üçün müraciət edən namizəd qanunvericiliklə müəyyən edilmiş vakant vəzifələrin tutulmasının ümumi şərtlərinin tələblərinə cavab verməlidir. Ümumi şərtlərin tələblərinə cavab verməyən namizəd müsahibədə iştirak edə bilməz.

# Nazirlik Kadr Ehtiyatı Bankı yaradır

***Mədəniyyət sahəsində aparılan institusional islahatlara ixtisaslı və təcrübəli insan resurslarının cəlb edilməsi, təhsil və idarəçilik keyfiyyətləri yüksək olan perspektiv kadrların seçilməsi məqsədilə Azərbaycanın Mədəniyyət Nazirliyi tərəfindən Kadr Ehtiyatı Bankı formalaşdırılır.***



Bu barədə "Unikal"a Mədəniyyət Nazirliyinin Mətbuat Xidmətindən məlumat verilib. Bildirilib ki, Kadr Ehtiyatı Bankı mədəniyyət sahəsində ixtisaslaşmış, təcrübəli, bilikli, idarəçilik keyfiyyətlərinə malik, dövlət, özəl və ya özünəməşğulluq sahəsində fəaliyyət göstərən şəxslərin qanunvericiliyə uyğun olaraq yaradılan və mühafizə edilən, dövlət, özəl sektor və vətəndaş cəmiyyəti arasında kadr mübadiləsinin gücləndirilməsinə xidmət edən məlumat bazasıdır.

"Mədəniyyət Nazirliyi aşağıdakı meyarlardan hər hansı birinə uyğun olan şəxsləri aşağıdakı keçid vasitəsilə qeydiyyatdan keçərək səhifədə qeyd edilən məlumatları daxil etməklə Kadr Ehtiyatı Bankına müraciət etməyə dəvət edir:

- İncəsənət, ədəbiyyat, mədəni və yaradıcı sənayelər, mədəni irs və mədəniyyətə aid edilən digər sahələr üzrə ali təhsili olan şəxslər;

- İdarəetmə sahəsində ali təhsili olan və mədəniyyət sahəsi üzrə azı 3 il təcrübəsi olan şəxslər;

- Mədəniyyət sahəsi üzrə xarici ölkələrdə ali təhsil almış və ya işləmiş şəxslər;

- Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na daxil edilməklə Azərbaycan Respublikası Prezidentinin xüsusi təqaüdünə və ya Gənclər üçün Prezident Mükafatına layiq görülmüş şəxslər", - məlumatda qeyd olunub.

# Taxtakörpü su anbarının mühüm hidrotexniki əhəmiyyəti



***Taxtakörpü su anbarı ölkəmizdə mövcud olan ən mühüm hidrotexniki qurğulardandır. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, Taxtakörpü su anbarı ölkəmizdə mövcud olan ən mühüm hidrotexniki qurğulardandır.***

Ölkə başçısının sərəncamı və Meliorasiya və Su Təsərrüfatı Səhmdar Cəmiyyətinin sifarişi ilə ilə 2007-ci ildə tikintisinə başlanılan anbar çox böyük strateji əhəməmiyyətə malikdir. Belə ki, son illər yay mövsümündə Samur çayında su ehtiyatlarının kəskin azalmasına baxmayaraq Taxtakörpü su anbarına yığılan su hesabına Bakı, Sumqayıt şəhərlərinin, Abşeron yarımadası və ölkənin şimal zonasının kənd təsərrüfatı sahələrinin su təminatında yarana biləcək çətinliklərin qarşısının alınması mümkün olub. Bunu Prezident İlham Əliyev də çıxışı zamanı xüsusi qeyd edib. Ölkə başçısı bildirib ki, əgər vaxtında Taxtakörpü su anbarları inşa edilməsəydi, bu gün meliorasiya sahəsində bizim böyük problemlərimiz ola bilərdi. Su anbarı istifadəyə verildikdən sonra burada 1 milyard 190 milyon kubmetr su toplanıb ki, bunun da 1 milyard 86 milyon kubmetri istifadə edilib. İstifadə olunan suyun 877 milyon kubmetri Bakı, Sumqayıt şəhərlərinin və Abşeron yarımadasının əhalisinin içməli su təchizatına sərf olunub. Respublikamızda içməli su probleminin aradan qaldırılması istiqamətində xüsusi əhəmiyyəti ilə fərqlənən "Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsi çərçivəsində inşa edilən Taxtakörpü Su Anbarının Su Elektrik Stansiyası ilə birgə Taxtakörpü-Ceyranbatan, Vəlvələçay-Taxtakörpü kanallarının tikintisi layihələrinin reallaşdırılması ölkənin sosial-iqtisadi həyatında mühüm əhəmiyyətə malikdir.

Bu hidrotexniki qurğu Azərbaycanda reallaşdırılmış layihələrdən müasirliyi və mükəmməlliyi ilə fərqlənir. Bəndin uzunluğu 1180, hündürlüyü 142,5 metrdir. Sahəsi 8,7 kvadratkilometrə çatan gölün ümumi su tutumu 268,4 milyon kubmetr, faydalı həcmi isə 218,9 milyon kubmetrdir. Su anbarından Taxtakörpü-Ceyranbatan kanalına saniyədə 40 kubmetr su axıdılır, burada quraşdırılan üç



turbin vasitəsilə 25 mVt elektrik enerjisi istehsal edilir. Ümumilikdə Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsinin həyata keçirilməsi nəticəsində Sumqayıt şəhəri, Abşeron yarımadası, xüsusən də Bakıətrafı kənd və qəsəbələrə saniyədə 18 kubmetr suyun verilməsinə imkan yaranıb. Beləliklə, əhalinin içməli suya, eləcə də suvarma və texniki suya olan tələbatı tam yaxşılaşıb. Suyun öz axını ilə Ceyranbatan su anbarına verilməsi nəticəsində 167 milyon kilovat-saat elektrik enerjisinə və 15 milyon manata qədər maddi vəsaitə qənaət edilir.

2013-cü ildə istifadəyə verilən su anbarının sayəsində Sumqayıtın, Bakı və Bakıətrafı qəsəbələrin suya olan ehtiyacı daha yaxşı ödənilib, regionun fasiləsiz elektrik enerjisi ilə təminatına əsaslı zəmin yaranıb, başqa sözlə desək, Taxtakörpü su anbarı bu yerlərə yeni həyat gətirib.

***Hüseyn***

# Şəhid Afərin Qulamzadənin doğum günüdür

***Vətənin dar günündə dadına çatıb, onun yolunda canını fəda edən daha bir qəhrəmanımız Afərin Müqəddəs oğlu Qulamzadədir.***

Şəhidliyi xalqına igidlik, vətənsevərlik, əsl kişilik məktəbi olan Afərin 1999-cu ilin iyulun 13-də Lənkəran rayonunun Mamusta kəndində dünyaya göz açıb. Elin igid oğlu İkinci Qarabağ müharibəsi başlayan gündən doğma Azərbaycanın müqəddəsliyini hər şeydən əziz tutaraq, əlinə silah alıb özünü odun-alovun içinə atır.

30 il əsarətdə qalan Vətən torpaqların azadlığı uğrunda erməni dığaları kabusuna çevrilir. 3 noyabr tarixində Xocavənd istiqamətində gedən haqq savaşımızda 21 yaşında düşmən gülləsinə tuş gəlir. Onda yurdunun yağ tapdağından qurtulmasına lap az qalırdı. Afərin kimi minlərlə qəhrəmanın torpağa axıtdığı qan hesabına üçrəngli ay-ulduzlu qələbə bayrağımız əzəli-əbədi



yurd yerimiz Qarabağın əksər yerində dalğalanırdı.

Afərinin döyüş yolu müharibənin ən qaynar nöqtəsi olan Füzulidən başlanır. Hər an Vətən uğrunda canından keçməyə hazır olan igid döyüşçü bir-birindən çətin müharibə meydanlarında yaşının çərçivəsinə sığmayan rəşadət nümunəsi göstərir. Döyüşlərin birində yaralı komandirini atəş zonasından çıxararkən ayağından ağır yaralanır. Afərin 3 gün hərbi hospitalda müalicə alsa da, ailəsinə bu barədə bir söz demir. Sağalar-sağalmaz döyüş meydanına, silahdaşlarının yanına qayıdır. Döyüşdən-döyüşə bərkiyən qəhrəman Vətən oğlu son nəfəsinə qədər erməni dığalarına qan uddurur...

Şəhidin atası Müqəddəs kişi oğlu ilə fəxr etdiyini deyir: "Oğlum Vətəninə çox bağlı idi. Elə bu istəyinin arxasınca gedərək qəhrəmancasına şəhid oldu. İndi bütün xalqım onu özünə iftixar mənbəyi bilir. Oğlumun yeri cənnət, adı isə Azərbaycanla qoşadır. Həm də Afərin ermənilərə qarşı qanlı döyüşlərdə göstərdiyi şəxsi igidliyə görə "Vətən uğrunda", Füzulinin və Xocavəndin azadlığına görə medallara, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenə layiq olubdur. Hər dəfə qürur, şərəf rəmzi olan Vətən mükafatlarına əllim dəyəndə sanki oğluma sığal çəkirəm".

***Zəfər Orucoğlu, AJB***

# Bu fənlər üzrə MİQ imtahanı keçiriləcək



***Müəllimlərin işə qəbulu (MİQ) üzrə müsabiqənin test imtahanı mərhələsi davam edir.***

Təhsil İnstitutunun nəzdində İnsan Resursları Mərkəzindən "Unikal"a bildirilib ki, bu gün imtahanların ilk seansına ibtidai sinif (Azərbaycan bölməsi), ikinci seansına isə ibtidai sinif (Azərbaycan/rus bölməsi), musiqi fənləri üzrə namizədlər dəvət olunub. MİQ-in test imtahanı mərhələsində namizədlərə 150 dəqiqə vaxt verilir.

Xatırladaq ki, test imtahanları iyulun 11-dən başlanıb və iyulun 15-dək davam edəcək. Ümumilikdə 58 minə yaxın namizədin iştirak edəcəyi imtahanlar ölkənin 13 şəhəri üzrə 29 imtahan mərkəzində keçirilir. Namizədlər şəxsi səhifələrinə daxil olaraq imtahanların keçiriləcəyi tarix və məkanla tanış ola bilərlər.

Cari ildə 10 min müəllimin işə qəbulu hədəflənib. Vakansiya seçimində ilk olaraq şəhid ailələrinin üzvləri iştirak edə biləcəklər. Hər müəllim vakansiya seçimində maksimum 8 yer seçə bilər.

Qeyd edək ki, müəllimlərin işə qəbulu üzrə müsabiqənin təşkilində məqsəd savadlı və bacarıqlı müəllimlərin seçilməsidir.

# 23 ailənin də Laçın həsrəti bitdi




***Bu gün daha bir neçə ailə Laçın şəhərinə yola salınıb.***

"Unikal" xəbər verir ki, daha 85 nəfərdən ibarət 23 ailə doğma yurduna geri dönür.

Qeyd edək ki, köç Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola düşüb.

Köçürülən ailələr, Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşacaqlar.

Laçın şəhərinə ailələrin yola salınması mərasimində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin və Laçın Rayon İcra Hakimiyyətinin rəsmiləri iştirak ediblər.

Bununla da Laçın şəhərində 93 ailə, yəni 351 nəfərin daimi məskunlaşması təmin edilib.

# Azadlığa buraxılan "Şlyapa Zahid"lə bağlı protest verildi



***Bu yaxınlarda azadlığa buraxılan Müdafiə Nazirliyinin Daxili Təhlükəsizlik, həmçinin Təhsil-tədris və Elmi tədqiqatlar idarəsinin sabiq baş zabiti Zahid Niftəliyev və onunla birgə ittiham olunan Elsevər Niftəliyevlə bağlı hökmdən protest verilib.***

"Qafqazinfo"nun əldə etdiyi xəbərə görə, dövlət ittihamçısı təqsirləndirilən şəxslər barədə hökmdən narazı qalıb.

Prokuror birinci instansiya məhkəməsinin çıxardığı hökmün ləğv edilməsini, Z.Niftəliyev və E.Niftəliyevin külli miqdarda rüşvət almaqda təqsirli bilinmələrini istəyir. Şikayətə Gəncə Apellyasiya Məhkəməsində baxılacaq.

Qeyd edək ki, təqsirləndirilən şəxslərə Cinayət Məcəlləsinin 311.3.1, 311.3.2 və 311.3.3 (qabaqcadan əlbir olub külli miqdarda təkrar rüşvət alma) maddəsi ilə ittiham verilib. Z. Niftəliyev, həm də CM-in 341-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə və ya səlahiyyət həddini aşma) maddələri ilə təqsirləndirilib.

Cinayət işi Tərtər Hərbi Məhkəməsində araşdırılıb.

Məhkəmənin hökmü ilə Zahid Niftəliyevin əməli Cinayət Məcəlləsinin 312.1-ci (rüşvət verməyə təhrik etmə) maddəsinə tövsif edilib.

Z.Niftəliyev bu maddə ilə təqsirli bilinib, ona 10 min manat cərimə cəzası təyin edilib. Onun barəsində seçilmiş həbs qətimkan tədbiri ləğv edilib, məhkəmə zalından birbaşa azadlığa buraxılıb.

Təqsirləndirilən gizir Elsevər Niftəliyevin isə əməlində cinayət tərkibi olmadığından ona bəraət verilib.

Xatırladaq ki, Zahid Niftəliyev Azərbaycan Ordusunun keçmiş Baş Qərargah rəisi Nəcməddin Sadıkovun yaxın adamı olub. O, "Şlyapa Zahid" ləqəbi ilə tanınıb.



# Rus general işdən çıxarıldı

***Rusiya Cənub Hərbi Dairəsinin 58-ci Əlahiddə Ümumqoşun Ordusunun komandiri general-mayor İvan Popov xidmətdən uzaqlaşdırılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Popov özü məlumat verib.

Generalın sözlərinə görə, onunla yüksək vəzifəli şəxslər arasında çətin vəziyyət yaranıb. O, problemləri açıq şəkildə bildirdiyi üçün işdən çıxarıldığını deyib.

Onun yerinə general-leytenant Denis Lyamin təyin edilib.

*Ağarza Elçinoğlu*

# Makrona zərfdə kəsilmiş barmaq göndərilib

***Fransa prezidenti Emmanuel Makrona zərfdə kəsilmiş barmaq göndərilib.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bu barədə Yelisey sarayı məlumat yayıb.

Bildirilir ki, iyulun 10-da Sarayın qəbul şöbəsinə poçtla məktub gəlib. Makrona ünvanlanan zərf açılan zaman içindən insan barmağı çıxıb.

Hüquq-mühafizə orqanlarının əməkdaşları daha sonra barmağın sahibini tapıblar. Saray isə zərflə bağlı məlumat verməkdən imtina edib.

# Çeçen hərbçilərin kazarmasına hücum edildi

***Donetsk vilayətinin Mariupol şəhərində Çeçen hərbçilərin kazarmasına hücum edilib.***



"Unikal" xəbər verir ki, bu barədə Mariupol merinin müşaviri Petro Andryuşenko açıqlayıb.

"Məlumata görə, yaralılar gizli şəkildə Donetsk istiqamətində aparılırdı ki, bu da onların vəziyyətinin ağır olduğunu göstərir. Biz təfərrüatları öyrənirik", - müşavir bildirib.

Kadırovçuların kazarmasına hava hücumu iyulun 12-də edilib.

*Ağarza Elçinoğlu*

# Zəlzələ Türkiyə iqtisadiyyatına 104 milyard dollar zərər vurub

***"Zəlzələnin ölkə iqtisadiyyatına vurduğu ümumi zərər 104 milyard dollar olaraq hesablanıb".***

"Unikal" xəbər verir ki, bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Berlin Zəlzələ Konfransına videomüraciətində deyib.

"Oktyabr və noyabr aylarından başlayaraq mərhələli şəkildə tamamlanmış evləri təhvil verəcəyik. Ümumilikdə 650 min ev tikməyi hədəfləyirik. Şəhərlərimizi əvvəlkindən daha təhlükəsiz və dayanıqlı etmək əzmindəyik", - deyə Türkiyə lideri açıqlayıb.

*Ağarza Elçinoğlu*

# "Rusiyanın mövqeyi dəyişməyib" - Lavrov

***"Ukraynada həll edilməli olan məsələlərdə Rusiyanın mövqeyinin dəyişmədiyini bildirib.***

"Unikal" xəbər verir ki, bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov deyib.



O, sülh təşəbbüslərinin uğursuzluğunda Ukraynanı günahlandırıb. Lavrov həmçinin bəyan edib ki, böhranın həlli ilə bağlı danışıqların iyulda aparılacağı ilə bağlı məlumatlar etibarsızdır.

Qərbin hərəkətləri ilə Rusiya üçün ekzistensial təhlükə yaratdığına diqqət çəkən Lavrov, "Rusiya əlində olan bütün qaynaqlardan istifadə edərək özünü müdafiə edəcək", - deyə bildirib.

*Gülayə Mecid*

# İyul tarixin ən isti ayı kimi qeydə alına bilər

***Avropa və Şimali Afrikada isti dalğası bəzi yerlərdə rekord həddə çata bilər.***

"Unikal" xəbər verir ki, bu barədə BBC məlumat yayıb.

Bildirilir ki, İspaniya, Fransa, Yunanıstan, Xorvatiya və Türkiyədə temperatur 40 dərəcəni keçə bilər. İtaliyada Florensiya və Roma da daxil olmaqla on şəhər üçün qırmızı təhlükə elan edilib. Burada temperaturun 48,8 dərəcəyə çata biləcəyi təxmin edilir.

İtaliyalı siyasətçi Nikola Fratoianni vəziyyəti "Dözülməz isti dalğası ilə üzüzəyik" mesajı ilə paylaşıb. Ölkədə turistlərin də istidən huşunu itirdiyi barədə məlumatlar var.

Qeyd edək ki, ötən il Avropada 60 min insan isti dalğası ilə bağlı fəsadlar səbəbindən ölüb.

Leypsiq Universitetindən verilən açıqlamada, bu ay tarixin ən isti ayı kimi qeydə alına bilər: "Tarixin ən isti ayı dedikdə, son 120 min ilin ən isti ayı nəzərdə tutulur. Növbəti bir neçə gün ərzində Cənub Yarımkürəsində temperatur bir qədər aşağı düşəcək, lakin iyul və avqust aylarında daha isti günlər görəcəyik".

*Gülayə Mecid*



# İstanbulda 7 bal gücündə zəlzələ ola bilər

***Türkiyə yenidən güclü zəlzələnin fəsadlarından əziyyət çəkə bilər.***

"Unikal" xəbər verir ki, bunu "RİA Novosti" agentliyinə müsahibəsində seysmoloq Haluk Eyidoğan bildirib.

Seysmoloqun fikrincə, İstanbulda ən azı 7 bal gücündə təkanlar baş verə bilər və bunun bütün ölkə üçün fəlakətli nəticələri ola bilər.

Onun sözlərinə görə, seysmik aktiv Şimali Anadolu tektonik qollarından biri məhz Mərmərə dənizinin sahillərindən keçir və Türkiyənin böyük metropolisi İstanbula təhlükəli dərəcədə yaxındır.



Ona görə də nə vaxtsa şəhərdə maqnitudası 7 bal və daha yüksək olan zəlzələnin baş verə biləcəyi istisna deyil.

Eyidoğanın fikrincə, zəlzələ dağıdıcı gücdə sunamiyə səbəb ola bilər və bunun nəticəsində İstanbulun bir neçə rayonunu su basacaq.

Mütəxəssis qeyd edib ki, bəzi ərazilərdə bir kilometr yarıma qədər daxili ərazinin su altında qala biləcəyindən söhbət gedir.

*Nuranə Abbasova*

# Ruslara "iPhone"dan istifadə qadağan edilib

***Rusiyada "Rostec" şirkəti bütün işçilərinə, o cümlədən dövlət korporasiyasının bir hissəsi olan təşkilatlara "iPhone" və ya hər hansı digər "Apple" istehsalı olan avadanlıqdan istifadə etməyi qadağan edib.***

"Unikal" xəbər verir ki, bu barədə "RİA Novosti" məlumat yayıb.

Bildirilir ki, "iPhone"dan istifadəyə qoyulan qadağa "Rostec"in tərkibinə daxil olan və optik-elektron sistemlərin hazırlanması və istehsalına cavabdeh olan "Şvabe" şirkətinin əməkdaşlarına da şamil edilib. Rəsmi versiyaya görə, söhbət "iPhone"un "işgüzar məqsədlər üçün" istifadəsinə qoyulan qadağadan gedir.

"İşdə Amerika istehsalı olan avadanlıqların istifadəsinə tam qadağa tətbiq edilir", - məlumatda qeyd olunub.

Qadağa FTX-nın "Apple"ın Amerika kəşfiyyatı ilə əməkdaşlığı və virusa yoluxmuş "iPhone" telefonları vasitəsilə rus diplomatlarına casusluq etməsi ilə bağlı yaydığı məlumatla bağlıdır.

*Gülayə Mecid*



# Rusiya nümayəndə heyəti danışıqlar masasını tərk etdi

***Rusiya və Gürcüstan arasında Cenevrədə keçirilən beynəlxalq danışıqların 58-ci raundu nəticəsiz başa çatıb.***

"Unikal" xəbər verir ki, bu barədə Gürcüstanın xarici işlər nazirinin müavini Laşa Darsaliya bildirib.

Onun sözlərinə görə, indiki mərhələdə destruktiv mövqe nümayiş etdirən Rusiya nümayəndə heyəti danışıqlar masasını vaxtından əvvəl tərk edib: "Qaçqınların qaytarılması Cenevrə



müzakirələrinin əsas məsələlərindən biridir. Təəssüf ki, Rusiya nümayəndə heyəti gündəmdə məhz bu məsələ ilə danışıqlar masasını tərk etməkdə davam edir. Mövzunun aktuallığına baxmayaraq, Rusiyadan müsbət siqnallar yoxdur. Bu məsələ ilə bağlı müzakirələrin başlanğıcında Rusiya nümayəndələri təəssüf ki, bu mərhələdə yenə destruktiv mövqe nümayiş etdirdilər".

*Ağarza Elçinoğlu*

# "Qarabağ"ın oyunu bu göstəricidə sonuncudur

***Çempionlar Liqasının I təsnifat mərhələsində oyunları izləyən azarkeşlərin sayı açıqlanıb. İlk görüşlər çərçivəsində ən az azarkeş "Linkoln" - "Qarabağ" qarşılaşmasında olub.***

Belə ki, Ağdam təmsilçisinin Cəbəllütariq çempionu ilə "Viktoriya" stadionundakı duelinə cəmi 683 nəfər gəlib. Azərbaycan çempionu qarşılaşmadan 2:1 hesablı qələbə ilə ayrılıb.



Ən çox azarkeş isə "Astana" (Qazaxıstan) - "Dinamo" (Tbilisi, Gürcüstan) görüşünə toplaşıb. 1:1 hesabı ilə yekunlaşan oyuna tribunadan 27 min 328 adam tamaşa edib.

Ümumilikdə 15 qarşılaşmada 102 minə yaxın azarkeş olub.

Qeyd edək ki, "Qarabağ"la "Linkoln" arasında cavab oyunu iyulun 19-da Bakı Olimpiya Stadionunda keçiriləcək.

# Vətən şəhidlərinin xatirəsinə həsr olunmuş çimərlik futbolu keçirilib

***Bu günlərdə astaralı futbol həvəskarları maraqlı bir idman yarışına şahidlik ediblər.***

Belə ki, burada Vətən müharibəsi şəhidlərinin xatirəsinə həsr olunmuş çimərlik futbolu üzrə açıq rayon turniri olduqca maraqlı, gərgin mübarizə şəraitində keçib. Yarış rayon Gənclər və İdman İdarəsinin təsdiq etdiyi əsasnaməyə uyğun olaraq Astara Dənizkənarı Park Bulvar Kompleksinin ərazisindəki Xəzər dənizi sahilində baş tutub.

Tədbirin açılış mərasimində Gənclər və İdman İdarəsinin rəisi R.Şirinov, Vətən müharibəsi veteranı Ə.Əskərov, Vətən müharibəsi qazisi İ.Əkbərov, "Azərbaycan Respublikasının Fəxri Bədən Tərbiyəsi və İdman İşçisi", yarışın baş hakimi A. Əkbərov, Astara rayon Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin futbol üzrə məşqçisi, yarışın hakimi Q.Mirzəyev çıxış etmiş tədbirin əhəmiyyətini qeyd etmiş və idmançılara uğurlar arzulayıblar.

Yarışda 5 rayon komandası - Astara, İmişli ( 2 komanda), Beyləqan, Ağcabədi komandaları Oyunların Olimpiya sistemi (uduzub-çıxma) üzrə mübarizə aparıb.Yekunda birinci yeri Astara komandası , ikinci yerə İmişli-2 komandası, üçüncü yerə isə Beyləqan komandası tutub. Fəxri yerləri qazanan komandalara, eləcə də fərqlənən ən yaxşı hücumçuya, ən yaxşı qapıçıya və ən yaxşı müdafiəçiyə Astara rayon Gənclər və İdman İdarəsinin, Çimərlik Futbol Federasiyasının kuboku, hədiyyələri və diplomları təqdim olunub.



# Avropa çempionatı: Voleybol üzrə Azərbaycan millisinin heyəti açıqlanıb

***Voleybol üzrə Azərbaycan millisinin Avropa çempionatı üçün geniş heyəti açıqlanıb.***

Federasiyadan "Unikal"a verilən məlumata görə, baş məşqçi Ataman Güneyligil yığmaya 17 oyunçu dəvət edib.

Hücumçular: Polina Rəhimova, Odina Əliyeva, Yelizaveta Ruban, Marqarita Stepanenko, Nikalina Başnakova, Ülkər Kərimova.

Blokçular: Ayşən Abdüləzimova, Olena Xarçenko, Aynur İmanova, Mariya Kirilyuk, Anastasiya Mertsalova, Kseniya Pavlenko.

Oyunqurucular: Kristina Besman, Yana Doroşenko, Şəfaqət Alışanova.

Liberolar: Yuliya Kərimova, Bəyaz Quluyeva.

Baş məşqçi: Ataman Güneyligil

Qeyd edək ki, qitə çempionatına avqustun 15-dən sentyabrın 3-dək Belçika, İtaliya, Almaniya və Estoniya ev sahibliyi edəcək. Azərbaycan millisi Çexiya, Almaniya, Yunanıstan, İsveç və Türkiyə ilə birlikdə C qrupunda mübarizə aparacaq.



"Qarabağ Azərbaycandır" mini futbol turnirinin açılış mərasimi

Cəlilabad rayon Gənclər və İdman İdarəsinin dəstəyi və "Əhmədoğlu FK"nin birgə təşkilatçılığı sayəsində şəhidlərin xatirəsinə həsr olunmuş "Qarabağ Azərbaycandır" mini futbol turnirinin açılış mərasimi keçirilib.

Açılış mərasimində, idarə, müəssisə, təşkilat rəhbərləri, şəhid ailələri, qazilər və ictimaiyyət nümayəndələri iştirak edib. Mərasimdə ilk öncə Azərbaycanın bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsi anılıb.

Açılış mərasimində Qarabağ Qaziləri Birliyi Cəlilabad Rayon filialının sədri, Qarabağ qazisi Maşallah Əliyev çıxışında rayonunda belə idman yarışlarının təşkilinə görə səbəbkarlara təşəkkürünü bildirib.

Turnirdə ümumilikdə 24 komanda iştirak edir. Turnirin əsas məqsədi rayon gənclərinin asudə vaxtlarının düzgün və səmərəli təşkili, Qarabağ döyüşlərində həlak olmuş Vətən şəhidlərinin xatirəsini yad etmək, onların ailələrinə mənəvi dəstək olmaq, gənclərə vətənpərvərlik hisslərinin aşılanması, eləcə də sağlam həyat tərzinin təbliğidir.

***Z.Orucoğlu, AJB üzvü***

# AFFA İntizam Məcəlləsində dəyişikliklər edilib



***AFFA İntizam Komitəsinin (İK) İntizam Məcəlləsində dəyişikliklər edilib.***

Bu barədə "Report"a İK-nin sədri Erkin Hüseynov açıqlama verib.

Onun sözlərinə görə, İntizam Məcəlləsi 2023/2024 mövsümü üçün tam hazırdır: "Çap variantı yaxın günlərdə işıq üzü görəcək. Məcəllədə bir çox sanksiya və cəza dəyişdirilib. Klublar yeni versiya ilə AFFA-nın "Nəşrlər" və "Hüquqi normativ sənədlər" bölməsindən yaxından tanış ola bilərlər. Bu, olduqca vacibdir".

E.Hüseynov bildirib ki, 2023/2024 futbol mövsümü 107 maddədən ibarət məcəllə ilə tənzimlənəcək.

# "Neftçi"nin sabiq futbolçusu CAR klubuna keçdi

***Bakının "Neftçi" klubunun sabiq futbolçusu Edson Kastilyonun yeni komandası müəyyənləşib.***



"Unikal" xəbər verir ki, venesuelalı yarımmüdafiəçi Cənubi Afrika Respublikasının (CAR) "Kayzer Çifs" klubuna keçib.

Klubun rəsmi saytı Kastilyo ilə birillik müqavilə imzalandığını açıqlayıb.

Qeyd edək ki, 29 yaşlı oyunçu 2016-2017-ci illər mövsümündə "Neftçi"də çıxış edib. Paytaxt təmsilçisində 20 oyun keçirən futbolçu qol vura bilməyib.

# Lebron Ceyms karyerası ilə bağlı yekun qərarını verdi

***ABŞ-ın "Los-Anceles Leykers" klubunun basketbolçusu Lebron Ceymsin karyerası ilə bağlı yekun qərarı bəlli olub.***

"Unikal" xəbər verir ki, 39 yaşlı oyunçu açıqlamasında yaxın vaxtlarda idmanı tərk etməyi planlaşdırmadığını söyləyib.

"Oyuna hər şeyimi verə bilməyəcəyim gün basketboldan ayrılacağam. İndi sizi sevindirəcəyəm, belə gün hələ gəlməyib", - deyə məşhur basketbolçu bildirib.

Qeyd edək ki, Lebron Ceyms 2022/2023 mövsümündə 56 oyun keçirib. O, orta hesabla 28,9 xal, 8,3 ribaund və 6,8 məhsuldar ötürmə ilə yadda qalıb. 2003-cü ildən peşəkar karyerası davam edən təcrübəli oyunçu 4 dəfə NBA çempionu olub.

# "Bavariya" ulduz futbolçu ilə vidalaşır



***Almaniyanın "Bavariya"sı futbolçusu Sadio Mane ilə yollarını ayırır.***

"Unikal" "Kicker" nəşrinə istinadən xəbər verir ki, klub rəhbərliyi artıq seneqallı hücumçuya özünə yeni komanda tapmasını tapşırıb.

Münhen təmsilçisi yüksək məvacib alan afrikalı forvardla bu yay vidalaşmaq istəyir.

Qeyd edək ki, Sadio Mane "Bavariya"ya ötən ilin yayında İngiltərə "Liverpul"undan keçib.

# ÇL: Ən az azarkeş "Linkoln" - "Qarabağ" oyununda olub

***UEFA Çempionlar Liqasının I təsnifat mərhələsinin ilk oyunlarını tribunalardan izləyən azarkeşlərin sayı müəyyənləşib.***

"Unikal" xəbər verir ki, 15 matçı ümumilikdə 101 799 tamaşaçı izləyib.

Ən çox fanat "Astana" (Qazaxıstan) - "Dinamo" (Tbilisi, Gürcüstan) qarşılaşmasında qeydə alınıb. 1:1 hesabı ilə başa çatan görüşdə 27 328 tərəfdar olub.

"Qarabağ"ın Cəbəllütariqdə "Linkoln"ə 2:1 hesabı ilə qalib gəldiyi oyun siyahının sonuncu pilləsində qərarlaşıb. "Viktoriya" stadionundakı matçda tribunada 683 nəfər olub.

Qeyd edək ki, "Qarabağ" və "Linkoln" komandaları arasındakı cavab qarşılaşması iyulun 19-da Bakı Olimpiya Stadionunda keçiriləcək.

